www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 aprel 2018-ci il Çərşənbə № 71 (6960) Qiyməti 60 qəpik

**Xəbər**

## Dönərlə bağlı iddia Bakını silkələdi: adam əti...

yazısı səh.14-də

**Gündəm**

### Hakimiyyətdən xainlərə sərt mesaj: "Sizi tanıyırıq"



"Avropa hücumu"nun arxasındakı sirli kimlik(lər) bir-bir üzə çıxır; iqtidar nümayəndələri Azərbaycana qarşı məkrli planın təşkilatçılarının kimliyindən xəbərdar olduqlarını bildirirlər: siyahıda daha kimlər var?

yazısı səh.6-da

### Onlar hökumətin tərkibində olmayacaq-adlar

yazısı səh.12-də

### Putin Türkiyədə: AES-in tikintisinin əsası qoyuldu

yazısı səh.3-də

*Pənah Hüseyn:*

### "Əsas maraqlı proseslər seçkidən sonradır"

yazısı səh.10-da

### Qarabağ düyünü kəsiləcək, yoxsa açılacaq?

yazısı səh.11-də

### Ziya Məmmədov indi də əmlaklarını itirir-təfərrüat

yazısı səh.12-də

*Baş Prokurorluq və DİN:*

### "Afiyəddin Cəlilovu və Şəmsi Rəhimovu bu banda..."

yazısı səh.7-də

### "Oktyabr seçkisində qarşıdurma olacaqdı" iddiasına yeni reaksiyalar

yazısı səh.4-də

### Qəbir yeri qiymətlərində müsəlman-xristian ayrı-seçkiliyi

yazısı səh.14-də

### Dollar ucuzlaşacaq, qızılın qiyməti artacaq

yazısı səh.13-də

### Akademikin üzrü qəbahətindən də betər oldu

yazısı səh.15-də

## Bakı-Tehran əlaqələri yeni sınaqla üzə-üzə

# ABŞ İRANI AZƏRBAYCANDAN HƏDƏF ALMAQ İSTƏYİR - SENSASİON GƏLİŞMƏ

Yeni dövlət katibinin gəlişi ilə Amerikanın regionla bağlı siyasətinə kardinal dəyişiklik istisna deyil; **ABŞ nəşrindən Ağ Evə ilginc təklif:** "Bunlar edilsə, İranla Rusiyanın Qafqazdan ayağı kəsilər, Qarabağ məsələsi isə..."




yazısı səh.9-da

## Rusiya Xəzəri hərbi nəzarətə götürür - "Güclü yumruq" kimə qarşıdır?

Kremlin Xəzərdə donanmasını gücləndirməsi qərarı Xəzəryanı dövlətlər, o cümlədən rəsmi Bakı üçün risklidir; Qərbdə sıxışdırılan Rusiya indi hər şeydən və hamıdan şübhəlidir...

yazısı səh.8-də



### 72 yaşı tamam olan Əli İnsanov özünü həbsxanada müalicə edir

yazısı səh.7-də



### Deputatlar parlemt tribunasından Rüfət Aslanlını sərt tənqid etdilər

yazısı səh.5-də



Mixail Boçarnikov

### Rusiyanın yeni səfiri: afrikaşünas, NATO əleyhidarı...

yazısı səh.4-də



# Prezident misirli həmkarına təbrik göndərdi

**Azərbaycan prezidenti İlham Əliyev Misir prezidenti Əbdülfəttah əs-Sisiyə təbrik məktubu göndərib. Virtualaz.org bildirir ki, təbrikdə deyilir: "Hörmətli cənab prezident, Misir Ərəb Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.**

İnanıram ki, Azərbaycanla Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Misir xalqının rifahı naminə fəaliyyətinizdə daim uğurlar diləyirəm".

# Moskvadan Lənkərana birbaşa aviareys açılır

**İyunun 8-dən etibarən "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) Moskva-Lənkəran-Moskva marşrutu üzrə birbaşa reysləri açılacaq. AZAL-dan "APA-Economics"ə verilən məlumata görə, reyslər "Airbus A320" təyyarələri ilə hər həftə cümə günləri yerinə yetiriləcək.**

"Vnukovo" Beynəlxalq Aeroportundan (VKO) uçuş yerli vaxtla saat 10:00-da, Lənkəran Beynəlxalq Aeroportuna eniş yerli vaxtla saat 14:10-da baş tutacaq. Lənkərandan uçuş yerli vaxtla saat 15:40-da, Moskvaya eniş yerli vaxtla saat 17:50-də olacaq.

# Məcburi köçkünlərin məskunlaşdığı binada yanğın-55 nəfər təxliyə edilib

**Bakıda məcburi köçkünlərin məskunlaşdığı binada yanğın olub. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsində yerləşən "Gilavar" sanatoriyasının ərazisində (hazırda fəaliyyət göstərmir) məcburi köçkünlərin məskunlaşdığı üçmərtəbəli korpusun 1-ci mərtəbəsində ümumi sahəsi 42 m2 olan 2 otağın və dəhlizin yanar konstruksiyaları, binaya bitişik tikilmiş ümumi sahəsi 18 m? olan köməkçi tikilinin yanar konstruksiyaları və zirzəmiyə yığılmış məişət əşyaları 18 m2 sahədə yanıb.**

Yanğın zamanı yuxarı mərtəbələrdəki tüstülənmiş otaqlardan 55 nəfər sakin Fövqəladə Hallar Nazirliyinin müvafiq xilasetmə qüvvələri tərəfindən təxliyə edilib. Bina yanğından mühafizə olunub və yanğın yanğın bölmələri tərəfindən söndürülüb.

# Bakıda yağış, dağlıq rayonlarda qar yağacaq

**Aprelin 4-də Bakıda və Abşeron yarımadasında buludlu havanın üstünlük təşkil edəcəyi, bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, arabir güclənən şimal-qərb küləyi əsəcək, axşam mülayimləşəcək.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 6-8, gündüz 9-12, Bakıda gecə 6-8, gündüz 9-11 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında sabah bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış, dağlıq ərazilərdə qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi gözlənilir. Gecə və səhər duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 3-8, gündüz 10-15 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 3-6 dərəcə isti olacağı gözlənilir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyinizkifayətdir.

**Telefon: (012) 434 93 01**

# KXDR-in xarici işlər naziri Bakıya gəlir

**Koreya Xalq Demokratik Respublikasının xarici işlər nazirinin Azərbaycana səfəri gözlənilir.**

Bunu "Trend"in Qoşulmama Hərəkatının nazirlər toplantısında Şimali Koreya xarici işlər nazirinin iştirakı barədə sorğusuna cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

H.Hacıyev xatırladıb ki, 5-6 aprel 2018-ci il tarixində "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatı çərçivəsində xarici işlər nazirlərinin aralıq nazirlər konfransı Bakıda keçiriləcək. Nazirlər konfransına hazırlıq məqsədilə 3-4 aprel 2018-ci il tarixində yüksək vəzifəli məmurlar səviyyəsində iclas keçirilir:

"Konfransda Qoşulmama Hərəkatında iştirak edən dövlətlər, həmçinin Hərəkat yanında müşahidəçi statusu almış dövlət və beynəlxalq təşkilatların nümayəndələri və xüsusi qonaq qismində dəvət olunan ölkə və təşkilatlar iştirak edəcəklər. Qoşulmama Hərəkatında 120 dövlət iştirak edir. 17 dövlət və 10 beynəlxalq təşkilat Qoşulmama Hərəkatı yanında müşahidəçi statusuna malikdir".



Hikmət Hacıyev

**XİN rəsmisi deyib ki, 5-6 aprel tarixlərində keçiriləcək Qoşulmama Hərəkatı nazirlər toplantısında hərəkata üzv olan ölkələrin xarici işlər nazirləri, o cümlədən üzv dövlət kimi Koreya Xalq Demokratik Respublikasının da xarici işlər nazirinin iştirakı gözlənilir:**

"Həmçinin nazirlər toplantısında BMT-nin Baş Assambleyasının prezidenti Miroslav Layçak və digər beynəlxalq təşkilatların rəhbər şəxslərinin iştirakı nəzərdə tutulub".

H.Hacıyev qeyd edib ki, BMT Baş Assambleyasından sonra Qoşulmama Hərəkatı dünya dövlətlərini birləşdirən ən böyük platformadır.

## Məşhur ginekoloq dünyasını dəyişdi

**"Baku Medical Plaza"nın Qadın xəstəlikləri və doğum şöbəsinin cərrah mama-ginekoloqu Səbinə Mirzəyeva vəfat edib. Ölümə qan təzyiqinin qəfil qalxması və beyninə qansızma səbəb olub.**

Ginekoloqun ölümü ilə bağlı "Baku Medical Plaza" məlumat yayıb: "Klinikamız üçün ağır itki baş vermişdir. Ginekoloqumuz Dr. Səbinə Mirzəyeva vəfat edib. Ailəsinə klinikamız adından dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin!"

Qeyd edək ki, Səbinə Mirzəyeva ölkənin məşhur ginekoloqlarından biri idi. O, Azərbaycan Tibb Universitetinin məzunu olub. Bir müddət Milli Onkologiya Mərkəzində, Mərkəzi Neftçilər Xəstəxanasında çalışıb. 2013-cü ildən "Baku Medical Plaza"da işləyib.

## "Aqrolizinq"in Salyan filialının rəhbəri həbsdə öldü

**Bakıda məhkum xəstəlikdən ölüb. APA-nın məlumatına görə, hadisə Penitensiar Xidmətin Müalicə Müəssisəsində qeydə alınıb. Orada saxlanılan Rövşən Balaqardaş oğlu Hüseynov xəstəlikdən vəfat edib.**

Qeyd edək ki, R. Hüseynov Kənd Təsərrüfatı Nazirliyi "Aqrolizinq" ASC-nin Salyan filialının rəhbəri işləyib. R. Hüseynov 2015-ci ilin mart ayında İrandan Azərbaycana qaçaqmalçılıq yolu ilə külli miqdarda narkotik keçirməkdə ittiham olunaraq saxlanılıb. O, həbs edilən sonra tutduğu vəzifədən azad olunub.



# 1541 partlamamış hərbi sursat, 1 tank əleyhinə mina...

**2018-ci ilin mart ayı ərzində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) tərəfindən Ağcabədi, Ağdam, Ağstafa, Beyləqan, Cəbrayıl, Goranboy, Xızı, Lənkəran, Tərtər, Yevlax rayonları və Sumqayıt şəhəri ərazisində 4 410 908 m2 (441.09 ha) ərazi yoxlanılıb, 1 541 ədəd partlamamış hərbi sursat (PHS) və 1 ədəd tank əleyhinə mina (cəmi 1 542 ədəd) aşkar edilərək zərərsizləşdirilib.**

ANAMA-dan APA-ya verilən məlumata görə, əməliyyatlarda 490 nəfərlik əməliyyat heyəti, 136 nəfərlik inzibati heyət, 6 mexaniki minatəmizləmə maşını və 40 minaaxtaran it iştirak edir.

İndiyədək cəmi 518,051,689 m2 (51,805.17 ha) ərazi təmizlənmiş və 794,151 ədəd mina və partlamamış hərbi sursat (PHS) tapılaraq zərərsizləşdirilib.

Mart ayı ərzində Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng Mərkəzindən 12, Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən isə 13 müraciət daxil olub.

Müraciətlər əsasında 8,050 m2 ərazi yoxlanılıb, 1 329 ədəd partlamamış hərbi sursat (PHS) və 1 ədəd tank əleyhinə mina (cəmi 1 330 ədəd) aşkar edilərək yerli əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Agentliyin Mərkəzi Məhvetmə ərazisinə daşınaraq zərərsizləşdirilib.

Ötən ay ərzində mina/PHS hadisəsi qeydə alınmayıb.

# Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb

**NATO-nun "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan ordusunun 52 nəfər sülhməramlısı aprelin 3-də plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.**

MN-dən APA-ya verilən Azərbaycan ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan ordusunun 120 hərbi qulluqçusu, 2 hərbi həkimi və 6 qərargah zabiti olmaqla, Əfqanıstandakı missiyada iştirak edir.



# Aprelin 11-i qeyri-iş günüdür

**2018-ci il aprelin 11-i növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkisi günü olduğundan həmin gün qeyri-iş günüdür.**

Bu barədə KİV-ə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev məlumat verib.

E.Babayev bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası Prezidenti seçkisi 2018-ci il aprelin 11-nə təyin olunub: "Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 8.2-ci maddəsinə əsasən səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab olunmur. Habelə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 105-1-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasında bələdiyyə üzvlərinin seçkiləri, həmçinin referendum zamanı səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab edilmir. Bununla əlaqədar, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi Kollegiyasının müvafiq qərarı ilə təsdiq edilmiş "2018-ci il üçün iş vaxtının norması"na və "2018-ci ilin istehsalat təqvimi"nə əsasən, Azərbaycan Respublikası Prezidenti seçkiləri günü olan aprelin 11-i qeyri-iş günü kimi müəyyən olunub".

# Ermənistan ordusu 11 hərbçisini itirib

**2018-ci ilin birinci rübü ərzində Ermənistan silahlı qüvvələrinin 11 hərbçisi ölüb.**

APA-nın xəbərinə görə, bu barədə Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisinin yaydığı məlumatda deyilir.

Məlumatda qeyd olunur ki, ölüm hallarından 9-u Ermənistan ordusunun işğal etdiyi Azərbaycan ərazilərindəki hərbi hissələrində, 2-si isə Ermənistanda baş verib.

Üç nəfər atəşkəs rejiminin pozulması, dörd nəfər bədbəxt hadisə nəticəsində, iki nəfər xəstəlikdən ölüb.

Bir hərbçinin öldürüldüyü, birinin isə intihar etdiyi hesabatda əksini tapıb.

YENİ MÜSAVAT
N 71 (6960) 4 aprel 2018

# Putin Türkiyədə: AES-in tikintisinin əsası qoyuldu

## Rusiya və Türkiyə prezidentləri 20 ayda 9-cu dəfə görüşdülər; Akkuyunun təməli atıldı, gündəmdə Suriyanın taleyidir...

**Rusiya prezidenti Vladimir Putin aprelin 3-də Bakı vaxtı ilə 17-də Ankaraya gəlib. Ankarada Beştəpədə yerləşən Prezident Sarayında Rusiya prezidenti şərəfinə rəsmi qarşılanma mərasimi təşkil olunub, fəxri qarovul düzülüb.**



Prezidentlər arasında ikili və heyətlərin iştirakı ilə görüş keçirilib. Aprelin 3-də Ankarada Türkiyə-Rusiya Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının 7-ci toplantısı keçirilib. Prezidentlər Akkuyu Nüvə Mərkəzinin təməlatma mərasimində iştirak ediblər. Mərasimə prezidentlər Ankaradan qatılıblar.

Qeyd edək ki, bu, Putin və Ərdoğanın 2016-cı ildən, yəni münasibətlərin düzəlməsindən bu yana olan 20 ayda 9-cu görüşüdür. Görüşlərin sayına və intensivliyinə baxsaq, Rusiya və Türkiyə əlaqələrinin tarixdə olmadığı səviyyəyə çatdığını demək olar. Xatırladaq ki, 2000-ci illərin əvvəllərindən istiləşən Rusiya-Türkiyə əlaqələri 2015-ci ildə Hatay sərhədləri yaxınlığında Rusiya təyyarəsinin Türkiyə tərəfindən vurulmasından sonra pozulub. Ancaq bir neçə ay sonra münasibətlər tədricən yumşalıb və 2016-cı ilin yayında iki ölkə arasında barışıq əldə olunub. Və bunun ardınca qarşılıqlı görüşlər, səfərlər başlayıb. 2016-cı ilin oktyabrında iki ölkə arasında "Türk axını" layihəsi imzalanıb. Sonrakı dövrdə anlaşmaların sayı daha da artdı. Türkiyə və Rusiya arasında S-400 Hava Hücumundan Müdafiə sistemlərinin alğı-satqısı müqaviləsi imzalandı. Qərbin təzyiqlərinə baxmayaraq Ankara S-400-ləri almaqda qərarlı olduğunu bəyan edib.

Aprelin 3-də axşam saat 18 radələrində Türkiyə və Rusiya liderlərinin iştirakı ilə Ankaradan telekonfrans vasitəsilə Akkuyu Nüvə Mərkəzinin təməlqoyma mərasimi keçirilib. Bu layihə Türkiyənin bölgədə nüfuzunu və gücünü artıracaq növbəti bir addım kimi qarşılanır. Uzun illər Türkiyə hökumətlərinin üzərində çalışdıqları nüvə enerjisi əldəetmə layihəsi, necə deyərlər, gerçəkləşmə mərhələsinə qədəm qoyub. Layihənin 2023-cü ildə işə düşməsi gözlənilir.

Bundan başqa, liderlərin gündəmində ticarət, iqtisadi əlaqələrin, eləcə də enerji sahəsində əməkdaşlığın gücləndirilməsi kimi mövzular var. Yeni layihələrin əsasında Rusiyanın "Qaz" Avtomobil markasının Türkiyədə də yığılması təklifi də var.

Aprelin 4-də isə Türkiyənin paytaxtı Ankara şəhərində Türkiyə, Rusiya və İran prezidentlərinin iştirakı ilə sammit keçiriləcək. Eyni zamanda prezidentlər arasında ikitərəfli görüşlər keçiriləcək. Liderlər sammitinin əsas mövzusu Suriya münaqişəsi olacaq.

Qeyd edək ki, 3 ölkə - Türkiyə, Rusiya və İran Astana prosesini başladıb. Uzun müddət aralarında ciddi soyuq münasibətlərdən sonra 2016-cı ildən sonra Türkiyənin Rusiya və İranla yaxınlaşması Astana prosesini sürətləndirib və ciddi nəticələrə səbəb olub. Hər 3 ölkənin birgə səyləri nəticəsində Suriyada ümumi atəşkəs elan olunub və terror təşkilatlarına qarşı əməliyyatlar başlayıb. Eyni zamanda Suriyada atəşkəs bölgələri müəyyən olunub və ölkələr müvafiq olaraq bu bölgələrdə atəşkəsə nəzarət ediblər. Məhz bu yaxınlaşma nəticəsində Türkiyə Afrin əməliyyatını həyata keçirib. Hazırda məhz Astana prosesi Suriyada əsas işlək mexanizm olaraq fəaliyyətdədir.



Türkiyənin Afrini azad etməsi, eləcə də Suriya hökumət qüvvələrinin Dəməşqin şimalında yerləşən Şərqi Quta rayonunu azad etməsi əməliyyatları başa çatıb. Ehtimal ki, Ankara sammiti liderlərin yeni strategiya müəyyən olunmasına xidmət edəcək. Türkiyənin SDQ qruplaşmasına qarşı əməliyyatları davam etdirməsi, İdlibin taleyi və siyasi danışıqlar mövzusu müzakirə olunacaq. Ehtimal ki, Menbic əməliyyatı haqda da aprelin 4-də baş tutacaq sammitdə qərar veriləcək.

Məsələ ondadır ki, Türkiyə indi Şimali İraq ərazisindən daxil olaraq Suriya kürdlərini, daha doğrusu, Suriyanın şimalındakı kürdlərin nəzarətində olan əraziləri almaq, Afrində olduğu kimi, Menbici də əməliyyatdan əvvəl mühasirəyə almaq niyyətindədir. Bununla bağlı Bağdadla danışıqlar aparılır. Eyni zamanda bu mövzuya Tehranın da dəstək verdiyi güman edilir. Bütün bunlar aprelin 4-də Ankarada keçirilən sammitdə razılaşdırılacaq.

Hər nə qədər Suriya üzərində həyata keçirilsə də, ötən il İraqda Kərkük əməliyyatı da göstərdi ki, artıq Türkiyə, İran və Rusiya regional mövzularda anlaşa və birgə hərəkət edə bilirlər. Bu məsələdə Vaşinqtonun və Avropanın tərs gedişlərinin də rolunu danmaq olmaz. Hələliksə Qərbin sıxışdırdığı 3 Avrasiya ölkəsi sürətlə yaxınlaşır və birgə hərəkət edilib.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Ziya Məmmədovun Cavid Qurbanova cavabı özünü çox gözlətmədi

## Sabiq nazir ittihamlara hücumla qarşılıq verdi; Dəmir Yolu İdarəsi rəisinin komandası korrupsioner fəaliyyətdə və dəmir yolu sistemini dağıtmaqda suçlandı



**Azərbaycan Dəmir Yolları QSC-nin sədri, deputat Cavid Qurbanovun son müsahibəsində verdiyi açıqlamalar cəmiyyətdə geniş müzakirələrə səbəb oldu. Müzakirələrlə yanaşı, müsahibədə söylədiyi bəzi fikirlər C.Qurbanova qarşı hücumların başlamasına gətirib çıxarıb.**

Xatırladaq ki, QSC sədri Bakı-Tiflis-Qars dəmiryolu xəttilə sərnişindaşımaya gələn ildən tez başlanmasının mümkün olmadığını deyib. Onun sözlərindən məlum olub ki, bu ləngiməyə "bəzi adamlar" səbəb olub. Belə ki, 3 il əvvəl sədrin adlarını çəkmək istəmədiyi bəzi adamların səhlənkarlığı üzündən sərnişin vaqonlarının alınmasına dair sifariş vaxtında icra olunmayıb: "Vaqonların alınması ilə bağlı 3 il əvvəl saziş imzalanıb. Lakin adını çəkməyəcəyim bəzi adamların səhlənkarlığı üzündən saziş sonadək işlənməyib. Sonra mən cənab prezidentə müraciət etdim, o, tapşırıq verdi, əlavə maliyyə mənbəyi tapıldı. Bundan sonra vaqonların hazırlanmasına başlanır, bu da haradasa 7-8 ay çəkəcək".

C.Qurbanovun adını çəkmək istəmədiyi şəxslər, aydın məsələdir ki, ondan əvvəl Azərbaycanın nəqliyyat və dəmiryol sisteminə rəhbərlik edənlərdir. Yəni idarə rəisi adlarını çəkməsə də, sabiq nəqliyyat naziri Ziya Məmmədovla Dəmir Yolunun əvvəlki rəhbəri Arif Əsgərovun sayəsində Bakı-Tiflis-Qarsla sərnişindaşımanın tez təşkil oluna bilməyəcəyini vurğulayıb. Bu isə faktiki olaraq, dövlət rəhbərliyinin diqqətində olan bir layihənin məhz bu iki şəxsin səhlənkarlığı üzündən yubandığı deməkdir.

C.Qurbanovun açıqlamasına qarşı tərəfin cavabı özünü çox gözlətmədi. Müxtəlif mətbuat orqanlarında, internet resurslarında ADDY sistemindəki "pozuntularla" bağlı materiallar dərc olunmağa başlayıb.

Belə materiallarda qeyd olunur ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin tərkibində olan "Təsərrüfat İdarəsi" MMC-də bir sıra qanun pozuntuları aşkarlanıb. Bildirilir ki, Bakı Dəmir Yolu Deposunda Rəhman Babaşov, Sərnişin Daşınmalar Departamentinin rəisi Elyar Muradov, onun müavini Hikmət Quliyev və digərlərinin əlbir olaraq qanunsuzluqlar edirlər, korrupsiya əməllərinə yol verirlər.

O da qeyd olunur ki, C.Qurbanov Sərnişin Daşınmaları Departamentinin rəisi Elyar Muradovla çox yaxın münasibətlərə malikdir və hər zaman bir yerdə olurlar.

**Yazılarda dəmiryolçulara istinadən iddia olunur ki, C.Qurbanov rəis təyin olunduqdan sonra işçilərin əmək haqları 3 dəfə aşağı düşüb:** "Halbuki keçmiş sədr Arif Əsgərovun dövründə qatar rəisləri 500-600 manat arası əmək haqqı alırdılar. Ancaq indi özlərinə məxsus qatar rəislərindən başqa yerdə qalanlar 250-300 manat arası əmək haqqı alır. QSC-də hər kəs yaxşı bilir ki, Bakı Deposunda Rəhman Babaşovun rəhbərliyi altında hər ay yüz min manatlarla vəsait silinərək mənimsənilir".

Həmçinin bildirilir ki, R.Babaşovun himayədarı Elyar Muradovdur. Onun sayəsində R.Babaşov yol verdiyi qanunsuzluqlara rəğmən cəzasız qalır. C.Qurbanov isə E.Muradov və onun dəstəsinin fəaliyyətinə məqsədyönlü şəkildə göz yummaqda ittiham olunur.

Göründüyü kimi, C.Qurbanov ad çəkmək istəməsə də, atdığı daş ünvanına gedib çatıb. Buna görə də qarşı tərəf boş dayanmayaraq, mediada C.Qurbanovun fəaliyyətinə kölgə salacaq hücum təşkil etməyə nail olub.

❑ **TURQUT, "Yeni Müsavat"**

# Əziz Orucovun səhhəti getdikcə pisləşir



**Həbsdə olan "Kanal 13" internet televiziyasının rəhbəri Əziz Orucovun günlərdir səhhətində yaranan problemlər davam edir. 14 saylı cəzaçəkmə müəssisəsində cəzasını çəkən "Kanal 13" rəhbəri ilə bağlı aidiyyəti qurumlara edilən müraciətlər nəticə vermir.**

Aprelin 3-də Ə.Orucovun həyat yoldaşı Lamiyə Orucova onunla görüşüb. "Yeni Müsavat"a açıqlamasında görüş barədə siyasi məhbusun həyat yoldaşı bunları deyib: "Əziz Orucovla görüşdüm. Səhhətində ciddi problemlər qalmaqdadır. Ürəyində ağrılar yaranıb, öskürək içində boğulur və deməsinə görə hərarəti düşmür. Hərəkət etməkdə çətinlik çəkir. Müalicə alsa da, yaxşılaşma hiss olunmur. Onun müalicə müəssisəsinə köçürülməsi üçün Penitensiar Xidmətə müraciət edəcəyik. Eyni zamanda onu da qeyd edim ki, Əziz Orucovun işi Ali Məhkəmədədir və kasasiya baxışını gözləyirik".

"Kanal 13" rəhbərinin vəkili Cavad Cavadov da dünən onunla görüşüb. Mətbuata açıqlamasında vəkil Ə.Orucovun səhhətinin getdikcə ağırlaşdığını bildirib: "Əvvəlki görüşlərdən fərqli olaraq Əzizi yaxşı durumda görmədim. Ürəyindəki ağrılarla yanaşı, kəskin öskürəyi də var və hərarəti düşmür. Deməsinə görə, hərəkət etməkdə çətinlik çəkir. Müalicə alsa da, səhhətində irəliləyiş yoxdur. Səhhətindəki problemlər xarici görünüşünə baxanda da hiss olunurdu".

Qeyd edək ki, Əziz Orucov 2017-ci il mayın 2-də həbs olunub. Ona əvvəlcə polisə müqavimət ittihamı ilə 30 sutka inzibati həbs cəzası verilsə də, azadlığa çıxmalı olduğu gün barəsində cinayət işi başlanıb və həbs-qətimkan tədbiri seçilib. Jurnalist "Qafqaz Media Araşdırmalar Mərkəzi" adlı təşkilatın fəaliyyətinə görə Cinayət Məcəlləsinin 192 (qanunsuz sahibkarlıq), 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham olunaraq, 6 il azadlıqdan məhrum edilib.

❑ **Cavanşir ABBASLI, Musavat.com**

**Rusiya Dövlət Duması Mixail Boçarnikovun Azərbaycana səfir göndərilməsi barədə namizədliyini təsdiqləyib. Rəsmi Bakının bu şəxsə aqreman verib-verməyəcəyi hələ məlum olmasa da, ekspertlər onun ölkəmizdə səfir olacağı ehtimallarını yüksək dəyərləndirirlər.**

# Rusiyanın yeni səfiri: afrikaşünas, NATO əleyhidarı..

## Dövlət Duması Mixail Boçarnikovun Azərbaycana səfir göndərilməsini təsdiqləyib



M.Boçarnikov 1948-ci il martın 6-da anadan olub. 1971-ci ildə Beynəlxalq Münasibətlər üzrə Moskva Dövlət İnstitutunu bitirib. 1996-cı ilə qədər Afrika ölkələrində çalışıb. 1996-cı ildə Moskvaya qayıdan diplomat burada Rusiya Xarici İşlər Nazirliyinin Afrika Departamentinin direktoru təyin edilib. Boçarnikov 1999-cu ildə Yunanıstana səfir olaraq göndərilib. 2003-cü ildə yenidən Moskvaya çağırılıb və bu dəfə ona Rusiyanın Qafqaz siyasəti istiqamətində önəmli vəzifə verilib. Belə ki, o, Rusiyanın Gürcüstan-Abxaziya konfliktinin həlli məsələsində xüsusi səlahiyyətli səfiri olub. 2006-cı ildə Qafqazdakı fəaliyyətini bitirən diplomat Qazaxıstana səfir təyin olunub. Boçarnikov Astanada Moskvanın rəsmi nümayəndəsi kimi 12 il qalıb. Buradakı fəaliyyəti dövründə Qazaxıstan hakimiyyəti ilə sıx əlaqələr qurmağı bacaran səfirin demək olar ki, hökumətlə heç bir problemi yaşanmayıb.

Boçarnikov NATO əleyhidarı kimi tanınır. O, xüsusilə NATO-nun Mərkəzi Asiyaya daxil olmaq cəhdlərini regionda stabilliyin pozulması kimi dəyərləndirir. Belə ki, Boçarnikova görə, bu regionun təhlükəsizliyinin təminatında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı mühüm rol oynayır və alternativ gücə ehtiyac yoxdur.

Diplomat ingilis, fransız və amxar (Efiopiyada geniş yayılıb - red.) dillərini bilir.

**Qərb Universitetinin Tətbiq Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu facebook səhifəsində Rusiyanın Azərbaycana təyin etmək istədiyi Boçarnikovla bağlı maraqlı bir status paylaşıb. Həmin statusda bəzi hissəni təqdim edirik:** "Boçarnikov Rusiya-Qazaxıstan münasibətlərinin inkişafı üçün az iş görməyib. Ancaq onun verdiyi son müsahibədə bir fikir diqqətimi çəkdi, səfirin sözlərindən belə çıxırdı ki, Qazaxıstan rəhbərliyi bu ölkədə yaşayan rusdilli əhaliyə daha çox diqqət göstərməlidir. Yeni dolayısı ilə belə çıxırdı ki, rusiyalı diplomat Qazaxıstan prezidenti Nursultan Nazarbayevin milli siyasətindən narazıdır. Bu sözləri unutmayaq. Çünki bu diplomat Azərbaycana təyin olunduqdan sonra əlindən gələn hər şeyi edəcək ki, Rusiyanın ölkəmizə təsir imkanları azalmasın, bəlkə də artsın. Azərbaycan XİN-in yeni səfirlə bağlı mövqeyini bilmək maraqlı olardı, bu diplomatla bağlı problem yoxdur ki? Çünki ötən dəfə Moskva Azərbaycana elə birisini səfir təyin etmək istəyirdi ki, Gürcüstanda separatçılara açıq dəstək vermişdi. Beləsi erməni separatçılarına da dəstək verərdi. Bu səbəbdən rəsmi Bakı haqlı olaraq Moskvanın göndərmək istədiyi həmin diplomata aqreman vermədi. Məsələnin qəliz tərəfi həm də odur ki, Azərbaycana göndərilməsi planlaşdırılan Boçarnikovu Dövlət Dumasında Rusiya parlamentinin MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədr müavini Konstantin Zatulin təqdim edib. Bu o Zatulindir ki, erməni işğalını dəstəkləyir, hər fürsət düşən kimi Azərbaycan cəmiyyətini və prezidentini aşağılamağa çalışır".

**Politoloq Nəzakət Məmmədova Boçarnikovun təcrübəsinin kifayət qədər yüksək olduğunu düşünür:** "Dövlət Dumasının müvafiq komitələri səfir təyinatı məsələsində məşvərətçi statusa malikdir. Onlar XİN-in təqdimatı ilə səfir namizədi məsələsinin müzakirəsində iştirak edir və öz rəylərini Rusiya prezidentinə göndərirlər. Bundan sonra o, səfir göndərmək istədiyi həmin şəxsin namizədliyini təsdiq edir və onun diplomatik nümayəndəliyini akkreditasiya edən ölkəyə göndərir. Qarşı tərəf aqreman verməsə, yenə də məsələ həllini tapmamış qalacaqdır. Duma komitələrində təsdiqlənməsi hələ həmin şəxsin səfir olacağı anlamına gəlmir. Bu, uzun prosedurdur. Amma ola bilər ki, bu dəfə aqreman verilsin. Çünki Zuyevdən fərqli olaraq indiki namizədin ermənipərəst olması barədə məlumat yoxdur.

Onun Qazaxıstanda işləməsi müəyyən qədər ona olan etimadı artırır. Dediyim kimi, Qazaxıstan türkdilli ölkədir, müsəlman ölkəsidir, üstəlik, Nazarbayev obyektiv şəxsiyyətdir və belə bir səfirlə hər hansı qalmaqal, problem olmayıbsa, bu, onun Azərbaycanda da işləyə biləcəyini güman etməyə müəyyən qədər əsas verir. Doğrudur, son dövrlərdə Qazaxıstanda artıq dövlət idarələrində yalnız doğma dildən istifadə olunması məsələsinə dair dövlət başçısı səviyyəsində qərar qəbul olunub və Rusiya səfirinin bundan narazı qaldığı bildirilir. Qazaxıstan Rusiya üçün strateji ölkədir və burada diplomatik missiya həyata keçirən Boçarnikovun diplomat kimi böyük təcrübəsi var. Görünür, onun təyinatında bu amillər rol oynayıb. Boçarnikovun əsasən Afrika üzrə mütəxəssis olduğunu, daha sonra Yunanıstanda səfir kimi fəaliyyət göstərdiyini, Qafqaz və Orta Asiyada isə son 15 ildə fəaliyyət göstərdiyini nəzərə alsaq, regionu tanımaq üçün kifayət qədər təcrübəsi olduğunu söyləmək olar".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat**

## Müdafiə Nazirliyinin nümayəndə heyəti Moskvaya gedir



**Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 4-ü və 5-də Moskva şəhərində keçiriləcək VII Beynəlxalq Təhlükəsizlik Konfransında iştirak edəcək.**

Virtualaz.org

Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən təşkil edilən beynəlxalq konfransda qlobal və regional təhlükəsizlik məsələləri müzakirə olunacaq.

Plenar iclaslarda təhlükəsizliyin regional aspektləri, dövlətlərin təhlükəsizliyinə təhdidlərə qarşı cavab tədbirləri üzrə hərbi qurumların fəaliyyətlərinin regional xüsusiyyətləri və bir sıra digər məsələlər müzakirə ediləcək.

## Saakaşvili Gürcüstana qayıdır?



**Gürcüstan prezidenti Mixail Saakaşvili Gürcüstana qayıdır.**

Modern.az Gürcüstan KİV-nə istinadən xəbər verir ki, facebook-da şərh yazan siyasətçi qısa zamanda indiki hakimiyyəti dəyişəcəyini deyib.

"Real təhlükə ilə yalnız iqtisadi artım və həyat səviyyəsinin yüksəlməsi ilə mübarizə aparmaq olar. Şəxsən bununla məşğul olmaq niyyətindəyəm. İndi Gürcüstana dönməməyim üçün qondarma ittihamlar irəli sürülər. Amma Gürcüstana qayıdacam və komandamla öz planımı həyata keçirəcəm. Gürcü xalqını ağır vəziyyətdə tək qoymayacam".

# "Oktyabr seçkisində qarşıdurma olacaqdı" iddiasına yeni reaksiyalar

## Yeganə Hacıyeva: "Hər şey oktyabrda keçiriləcəyi hesab edilən seçkilərə hesablanmışdı"

**Prezident seçkiləri yaxınlaşdıqca hakimiyyət təmsilçilərinin, hətta hakimiyyətə yaxın prezidentliyə namizədlərin dilindən belə açıqlamalar səslənir ki, əgər seçki oktyabrda keçirilsəydi, xarici güclər ölkədə çaxnaşma yarada bilərdi. Ən son bu cür açıqlama ilə prezidentliyə namizəd, deputat Zahid Oruc çıxış edib.**



Deyilənləri müxalif siyasi liderlər və siyasi ekspertlər də bu barədə fikirlərini "Yeni Müsavat"a bildiriblər.

**VİP sədri Əli Əliyev** bildirdi ki, seçki oktyabrda olacağı halda o dövrdə müəyyən proseslərin, çaxnaşmaların ola biləcəyi ehtimalı var idi: "Mənim də belə eşitdiklərim var. İstisna da deyil. Çünki biz bunun dəfələrlə şahidi olmuşuq. 2013-cü il prezident seçkiləri dediyimin sübutudur. O zaman Moskva Bakıda öz nümayəndəsini hakimiyyətdə əyləşdirmək istəyirdi. Lakin bu da var ki, indi seçki vaxtının dəyişdirilməsinə hakimiyyət hələ inandırıcı rəsmi izah verə bilməyib. Məsələn, səbəblərdən biri kimi bu il keçiriləcək dövlət tədbirlərinin, beynəlxalq tədbirlərin çox olması göstərilib. Fikrimcə, qarışıqlıq yaratmaq təşəbbüslərinin olması ehtimalının seçkinin önə çəkilməsinə səbəb olduğu daha çox ağlabatandır".

**Gənc Demokratlar İnstitutunun rəhbəri Yeganə Hacıyeva isə öncə xatırlatdı ki, növbədənkənar prezident seçkisinin elan olunmasından sonra müxtəlif versiyalar səslənib. Bunlar həm müxalifət tərəfindən, həm siyasi ekspertlərin dilindən, həm hakimiyyətə yaxın şəxslərin dilindən müxtəlif ehtimallar, versiyalar səsləndi. İrəli sürülən fikirlərin bəziləri cəmiyyətdə ciddi də qəbul olundu:** "Şəxsən mən hələ 2016-cı ilə referendum keçiriləndə bu referendumun Azərbaycanda növbədənkənar prezident seçkisini labüd etdiyini məhz "Yeni Müsavat"a açıqlamamda demişdim.

Biz arxasında qlobal güclərin dayandığı proseslərin də getməkdə olduğunu müşahidə edirik. Hakimiyyətdə də şübhəsiz ki, daha ciddi informasiyalar olmamış deyil. Ehtimal etmək olar ki, Azərbaycanda qarışıqlıq yaratmaq üçün xarici qüvvələr payızı hədəfləmişdilər, hər şey oktyabrda keçiriləcəyi hesab edilən seçkilərə hesablanmışdı. Seçki oktyabrda keçirilsəydi seçkilər dövründə Qarabağ cəbhəsində də Ermənistanın çox böyük təxribatlar etməsi ehtimalı böyük idi. Növbədənkənar seçki təyin olunması bütün bu kimi planları yarımçıq qoydu. Növbədənkənar seçkinin keçirilməsini həm bu mühüm məqam, həm də Azərbaycan Konstitusiyası tələb edirdi. Növbədənkənar seçkiyə gedilməsində nə hüquqi, nə də siyasi səhv yoxdur".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 71 (6960) 4 aprel 2018

**Aprelin 3-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Gündəliyin təsdiqlənməsindən sonra deputatların təkidini görən spiker Oqtay Əsədov cari məsələlər ətrafında danışmağa şərait yaratdı və gözlənildiyi kimi, parlamentarlar son günlərin ən çox danışılan mövzusuna münasibət bildirdilər.**



# Deputatlar bank sektorunu və Rüfət Aslanlını sərt tənqid etdilər

## Parlamentdə Maliyyə Bazarlarına Nəzarət Palatası rəhbərinin fəaliyyətsizliyi müzakirə edildi; "Oturub orada maaş alırlar, haradadır fəaliyyətlərinin nəticələri?"

**İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirdi ki, müstəqil Azərbaycan dövlətinin siyasəti bəzi dairələr tərəfindən qısqanclıqla qarşılandığı üçün iyrənc üsullara əl atırlar:** "Son vaxtlar bəzi sosial şəbəkələrdə mənəvi, əxlaqi dəyərlərin nə olduğunu bilməyən insanlar Azərbaycan dövlətinə və xalqına qarşı iyrənc kampaniya aparırlar. Biz əminik ki, bunlar hamısı keçəcək. Çünki Azərbaycanda xalq-dövlət birliyi təmin edilib, həmrəylik yaranıb".

**Deputat Siyavuş Novruzov dedi ki, xaricdən maliyyələşən ayrı-ayrı insanlar Azərbaycan dövlətinin, xalqının, prezidentinin əleyhinə təbliğat aparırlar:** "Bu gün erməni lobbisinin təhriki ilə Azərbaycana qarşı qarayaxma ilə məşğul olan dəstələr var. Bu günə qədər bir dəfə erməni səfirliyi qarşısında etiraz aksiyası keçirməyən insanlar Fransada, yaxud Köln şəhərində Azərbaycana qarşı etiraz tədbiri keçirirlər. Təəssüf ki, onların adı azərbaycanlıdır. Onların Azərbaycan xalqına qarşı fəaliyyəti göz önündədir. Sapı özümüzdən olan baltalar bax, bu cür insanlara deyirlər. Nəyisə qəbul etməyə bilərsən, siyasi mübarizə aparmaq istəyirsən, buyur. Amma erməni saytlarında, qəzetlərində məşhurlaşmaq istəyənlərdir bu insanlar. Vətənə, Azərbaycan ordusuna qarşı mübarizə olmaz!"

**Daha sonra YAP-çı deputat sükut edən həmkarlarına müraciət etdi:** "Burada cəmiyyətimizin mövqeyi yekdil olmalıdır. Siz də mövqeyinizi qoyun ortaya, mövqeyinizi bildirin. Hamımız çəkilək bir tərəfə, bunun nəticəsi nə olacaq? Hər bir insan öz seçicisini təmsil edir. Bunlar seçicini təhqir edirlər. Biz nəyə göz yumuruq, niyə münasibətimizi bildirmirik? Azərbaycanın bir parçasıdır səfirliklərimiz. Səfirliklər təhqir olunursa, bu, həm də Azərbaycan dövlətinin və xalqının təhqir olunması deməkdir. Niyə susuruq? Burada baxıram, əgər tərif məclisi olsaydı, burada mənə növbə çatmayacaqdı. Amma Vətəni, dövləti müdafiə ilə bağlı söz demək məqamı gələndə hərə bir tərəfə çəkilir. Ona görə də hər kəs öz mövqeyini ortaya qoymalıdır!"

**Deputat Eldar İbrahimov da həmkarının mövqeyini bölüşdü:** "Bir var erməni danışır, bir də var azərbaycanlılar. Həmkarımız Adil Əliyev tədbir keçirərkən orada baş verənləri gördüm, təəssüf etdim. Onlar kimdir? Vaxtilə bizim ora təhsil almaq üçün göndərdiyimiz şəxslər. Təbii ki, bizim də nöqsanlarımız var. Heç bir dövlət nöqsansız deyil. Amma kimisə təhqir etmək Azərbaycan xalqını, dövləti təhqir edir. Təkcə deputatlar yox, hər kəs belə çirkin, alçaq insanların cavabını verməlidir. Mən Azərbaycanı təhqir edənlərə "Ar olsun!" deyirəm".

**Deputat Ağacan Abıyev isə dedi ki, Azərbaycanı təhqir edənlərə azərbaycanlı adını qoymaq düzgün deyil:** "Onlar azərbaycanlı deyillər. Onlar Azərbaycanın düşmənləridir. Hər bir azərbaycanlı onlara "lənət" deməlidir".

**Deputat Novruzəli Aslanov isə dedi ki, Azərbaycan xalqı ölkə prezidentini, dövlətini müdafiə edir:** "Biz də belələrinə cavab hazırlamışıq və yaxın günlərdə layihəmizi təqdim edəcəyik. Birmənalı şəkildə ictimai qınaq olmalıdır. Azərbaycan xalqı birmənalı şəkildə onları qəbul etmir. Azərbaycan xalqı 11 apreldə öz sözünü deyəcək. Siyavuş müəllim, siz tam arxayın ola bilərsiniz".

**Deputat Fazil Mustafa** siyasi mübarizədə təhqirin yolverilməz olduğunu deməklə yanaşı, ayrı-ayrı məmurların neqativ fəaliyyətinə də toxundu. Eyni zamanda ixtiraçılarla bağlı maneələrin aradan qaldırılmasını, onlara dəstək verilməsini istədi.

**Deputat Elmira Axundova söyüşcül dəstə ilə bağlı çox sərt danışdı:** "Bu insanlar o qədər səviyyəsiz, o qədər kişilikdən uzaqdırlar ki, onlar heç bizim parlamentdə geniş müzakirələrə də layiq deyillər. Sonra gedib sevinəcəklər ki, bizimlə bağlı parlament səviyyəsində müzakirə açdılar. Siyavuş müəllimə demək istəyirəm ki, biz hər birimiz mövqeyimizi bildirmişik. Mən özüm müsahibə verib demişəm ki, opponentə qarşı kişi kimi mübarizə aparmaq lazımdır. Onlara demək istəyirəm ki, Azərbaycan kişisi kürəyə deyil, sinəyə zərbə vurur".

**Deputat Hikmət Məmmədov isə bu hadisələrin təsadüf nəticəsində baş vermədiyini bildirdi:** "Qlobal imperializm lidersizləşdirmə və dövlətsizləşdirmə siyasətini yeridir, biz Yaxın Şərqdə bunun şahidi olduq". **Deputat dedi ki, Azərbaycanda daxili sabitliyi pozmaq istəyənlər süni mühacirət yolu ilə müəyyən mərkəzlər yaratmağa başladılar:** "Onlar öz ölkələrində siyasi teatr düzəldirlər. Gələcəkdə bu, siyasi drama çevriləcək. Gördünüzmü, Kölndə polis müdaxilə etmədi, həm bizim tədbirə, həm də qarşı tərəfə icazə verdi. Azərbaycanı təhqir edən şəxslərlə bağlı hüquqi müstəvidə tədbirlər görülməli və onların cəzalandırılması üçün addımlar atılmalıdır".

**Deputat Tahir Kərimli keçmiş silahdaşlarından gileyləndi:** "Burada mənim ovaxtkı hakimiyyət yoldaşlarımdan var. Mən ovaxtkı iqtidara da, bugünkü müxalifətə də həmişə müxalif olmuşam. Başqa cür olmuşamsa kimsə desin. Heç kim deyə bilməz ki, nə vaxtsa qanundan, əxlaqdan kənar söz söyləmişəm". **Deputatın sözlərinə görə, radikal müxalifətə ona görə müxalif olub ki, onlar məhz bugünkü iqtidarın yanında olublar:** "Gizli və açıq şəkildə. Bir nəfər mənə göstərsin ki, bu iqtidarın xeyrini görməyib. Parlamentində də oturublar, xeyrini də görüblər. İndi isə iqtidardan qovulandan sonra olublar qəhrəman, radikal müxalifət. Kim inanar sizə? Həsi partiya və onun sədri deyə bilər ki, Azərbaycanda sabitliyi təmin edə bilərəm. Heç biri cürət edib bəyan edə bilməz. Dursun desin ki, gələrəm hakimiyyətə və Azərbaycan Suriyanın halına düşə bilməz. Bunu heç kim deyə bilmir. Ancaq söyürlər, təhqir edirlər. Yaxşı dağıdaq, bəs əvəzində nə olsun? Ona görə biz də öz növbəmizdə bunu edənləri pisləyirik".

**Spiker "hələ 21 nəfər də yazılıb" deyərək söz istəyən deputatlara irad tutdu və sözü komitə sədri Əli Hüseynliyə verdi. Ə.Hüseynli də cəmiyyəti bu məsələyə münasibət bildirməyə çağırdı:** "Hər kəs bilməlidir ki, prezidentə və dövlətə ünvanlanan təhqir bizim hər birimizə ünvanlanıb".

**O.Əsədov ardınca gündəliyin müzakirəsinə keçməyi təklif etdi:** "Hökm deyil ki, Milli Məclisin mikrofonu olsun və bu məsələ ilə bağlı burada mövqe bildirilsin. Gərək Milli Məclis işini qoyub ancaq bu məsələdən danışa. Ayrı-ayrı saytlar, qəzetlər var, orda da mövqe bildirmək olar".

**Banklarla bağlı müzakirələrdə çıxış edən deputat Siyavuş Novruzov kreditlərlə bağlı komitə sədri Ziyad Səmədzadəyə və aidiyyəti qurumların rəhbərliyinə xitab etdi:** "Mən istərdim ki, Ziyad müəllim və müvafiq qurumların rəhbərliyi bu məsələni ciddi araşdırsın. Bu kreditləri bir-birindən ayırmaq lazımdır. Bir gün burada hesabat versinlər ki, nə qədər insan kredit götürüb maşın almaqdan, iş yeri yaratmaqdan ötrü. Kimsə iş yeri yaratmaq üçün kredit götürübsə və təbii fəlakət nəticəsində ziyana düşübsə, ona dəstək verilməlidir. Amma biri kredit götürüb 50 minlik avtomobil almaq istəyibsə, getsin, dövlətin kreditini ödəsin. Eləsi var ki, hüzr məclisini həyata keçirməkdən ötrü kredit götürüb, bu insanları nəzərə almaq lazımdır".

**S.Novruzov Maliyyə Bazarlarına Nəzarət Palatasını tənqid etdi:** "Biz bu qurumu iki il əvvəl yaratdıq. Ancaq nə səs var, nə soraq. Banklarda şuralar, rəhbərlər dəyişir, hələ Milli Məclis qarşısında deməyiblər ki, nəticə necə oldu. Ən əsası insanların vəziyyətidir, cənab prezident də həmişə insanlarımızın problemlərinin həlli üçün çalışır. Biz qanun qəbul etdik, valyutadəyişmə məntəqələri yenidən bərpa olunsun. Orada 9 mindən artıq insan ailəsinə çörək aparırdı. Amma məsələ indiyə qədər həllini tapmayıb. Bu, kiminsə inhisarına çevrilib, qanun qəbul olunmasına baxmayaraq, imkan verilmir. Hər bir insanı cənab prezidentdən gözləməli deyilik ki. Hər kəs öz işi ilə məşğul olmalıdır".

**Deputat Fəzail Ağamalı da həmkarını dəstəklədi:** "Bu gün Azərbaycanda ən ciddi problem vətəndaşlarla kommersiya bankları arasında yaranmış problemlərdir. Vaxtilə kommersiya bankları aşağı faizlə vəsait götürərək, vətəndaşlara ikiqat artıq kredit verəndə bilməliydi ki, belə bir durumla üzləşəcək. Əgər bunu anlamırdılarsa, onda onlar nə üçün bank işi ilə məşğul olublar? Biz Maliyyə Bazarlarına Nəzarət Palatasını yaratdıq. Ümid edirdik ki, bu qurum problemləri həll edəcək. Ancaq məlumatlar var ki, orada intriqalar hökm sürür, faktiki olaraq iflic vəziyyətdədirlər. Onlar maaş alırlar, oturublar orda, hardadır fəaliyyətinin nəticələri? Biz sözümüzü deyirik, nəticəsi yoxdur. Oqtay müəllim, xahiş edirəm siz seçkilərdən sonra bu məsələni nəzərətə götürün, vətəndaşları narahat edən problemin həllində yardımçı olun!"

**Spiker isə "çox sağ olun, Fəzail müəllim, tapşırığını eşitdim" -deyə, maraqlı bir reaksiya verdi.**

**Deputat Fazil Mustafa Azərbaycanda orden və medalların sayının artırılmasına etiraz etdi. Bildirdi ki, ölkədə orden, medalların sayı həddən artıq çoxdur və bunu ləğv etmək lazımdır:** "Bir vaxtlar məsələ qaldırırdılar ki, Bakıya İkinci Dünya müharibəsi ilə bağlı qəhrəman şəhər adı verilsin. Niyə axı? Bakını Rusiyanın qəhrəman şəhəri etməliyik? O cümlədən sovet ənənəsi olan bu orden və medalları da yığışdırıb, bunun əvəzində insanlara stimul vermək üçün pul mükafatlarının ayrılmasını təşkil etməliyik". **Deputat qeyd etdi ki, keçmiş sovet ənənəsinin ən çox yaşadığı dövlət Azərbaycandı:** "Məsələn, Mendeleyevin bəzi elementlərinin Bakıda kəşf edilməsini öz adımıza bağlaya bilmərik. Bakıya qəhrəman şəhər adını niyə vermirlər deyə müzakirələr var idi. Bakıya Rusiyanın qəhrəman şəhəri adı verilməli idi?"

Spiker deputatın sözlərinə reaksiyası zamanı bildirdi ki, hər şeyi maddiyyata bağlamaq lazım deyil.

**Daha sonra çıxış edən birinci vitse-spiker Ziyafət Əsgərov da F.Mustafanın fikirlərinə etiraz etdi. Bildirdi ki, Bakının qəhrəman şəhər statusu almasına maneçiliyin olması barədə vaxtilə özü deyib. Odur ki, vitse-spiker iradın yanlış olduğunu söylədi:** "Bu, bizim tarixdir və tariximizə verilən qiymətdir. Vaxtilə SSRİ-nin əsas günahı olub ki, Bakıya qəhrəman şəhər adı verilməyib. Bunu da qısqanclıqdan ediblər". Z.Əsgərov F.Mustafanın "Gəmiçilik sahəsində xidmətlərə görə" medalının və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018) yubiley medalının təsis edilməsi ilə əlaqədar" qanun layihəsi barədə dediklərinə də etiraz etdi. Bildirdi ki, Azərbaycan tarixini yalnız 1918-20-ci ildən, yaxud 1991-ci ildən sonrakı dövrlə məhdudlaşdırmaq olmaz.

**Deputat Siyavuş Novruzov dedi ki, hər bir təltif insana, onun ailəsinə, gələcəyinə olan diqqətdir:** "Fazil Mustafa təklif edir ki, medal əvəzinə pul verilsin. "Şöhrət" ordeninə görə nə qədər vəsait vermək lazımdır? Bunu necə müəyyənləşdirmək olar. Dövlətin atributlarından biri olan titullar olmalıdır. Həm Milli Məclisdə fərqlənən əməkdaşları, onun üzvlərini, bura gələn qonaqları təltif etməliyik. Bu dövlətçiliyin diqqətinin nümunəsidir".

**Deputat Cavid Qurbanov da məsələyə münasibət bildirdi:** "At yarışında at çapanda at sevinir, ya onu çapan? Fərqlənən adamları fərqləndirmək lazımdır: Yeni bu insan neçənci yeri tutubsa, onu digərlərindən fərqləndirməyin bir forması olmalıdır".

Plenar iclasda "Peşə təhsili haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldı. Layihə barədə parlamentin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli məlumat verdi. Layihəyə əsasən, peşə təhsili müəssisələrinə lisenziyanın müddətsiz verilməsi nəzərdə tutulub.

Qanun layihəsinin səsverməsi zamanı spiker Oqtay Əsədov deputatlara iradını bildirdi. Belə ki, qanunun qəbul edilməsi üçün səsvermədə deputatların sayı kifayət etmədiyindən spiker əsəbiləşərək "Deputatları çağırın, deyəsən, boğazları quruyub, çay içməyə gediblər" söylədi. Bundan sonra yenidən səsvermə keçirildi və qanun layihəsi qəbul olundu.

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

# Hakimiyyətdən xainlərə sərt mesaj: "Sizi tanıyırıq"

## "Avropa hücumu"nun arxasındakı sirli kimlik(lər) bir-bir üzə çıxır; iqtidar nümayəndələri Azərbaycana qarşı məkrli planın təşkilatçılarının kimliyindən xəbərdar olduqlarını bildirirlər: siyahıda daha kimlər var?

**Ölkədə keçiriləcək prezident seçkisi ərəfəsində xaricdə yaşayan bir qrup azərbaycanlı mühacir sosial şəbəkələrdə videolar yayaraq, hakimiyyətin yüksək vəzifəli məmurlarının ünvanına söyüş, təhqir yağdırırlar. Onların seçdikləri bu cür mübarizə metodu cəmiyyətdə təkcə hakimiyyət nümayəndələrini deyil, eyni zamanda ziyalıları, deputatları, jurnalistləri və sadə vətəndaşları da narahat edir. Bunu sosial şəbəkələrdə, mətbuat səhifələrində bildirilən mövqelərdən də açıq şəkildə görmək olur.**

Bildirilir ki, bir qrup azərbaycanlının bu formada söyüşlü videolar yayması, sadəcə olaraq, aysberqin görünən tərəfidir. Əslində isə proseslərin arxasında Azərbaycan dövlətinə, ölkədə mövcud olan sabitliyi pozmağa yönəlik və nəhayət, xalqımıza qarşı olan məkrli planlar durur. Hakimiyyətin yüksək çinli məmurları bildirirlər ki, bu oyunların arxasında duran Qərbin bəzi dairələri, Azərbaycanda sabitliyin əsas dayağı olan hakimiyyət komandasını sıradan çıxarmaq, bununla da ölkədə qarışıqlıq salıb, Azərbaycanı bir növ Suriyanın, Yaxın Şərqin qan gölünə dönən digər ölkələrinin gününə salmağa çalışırlar.

Qeyd olunur ki, bu oyunların arxasında duran "sapı özümüzdən olan baltalar" da aktiv fəaliyyətə keçiblər. Qərbin aləti rolunu oynayanların konkret olaraq adı çəkilməsə də indiyədək mətbuatda bir sıra şəxslərin ismi "Avropa hücumu"nun arxasında duran kimlik kimi hallanıb.

**Ötən həftə Mətbuat Şurasının təşkilatçılığı ilə "İnternet mediada və sosial şəbəkələrdə milli-mənəvi dəyərlərin qorunması: neqativ meyllərə qarşı jurnalist həmrəyliyi" mövzusunda keçirilən tədbirdə çıxışı zamanı prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov da bu məsələ ilə bağlı geniş nitq söylədi. Azərbaycana qarşı məkrli plandan bəhs edən prezidentin köməkçisinin çıxışından belə aydın oldu ki, ölkəyə qarşı təxribat hazırlayanların arxasındakı şəxslərin kimliyindən hakimiyyət xəbərdardır. Ə.Həsənov çıxışında söylədi:**

"Bu işin təşkilatçıları və icraçılarını Azərbaycanı suriyalaşdırmaq istəyən "virtual İŞİD" adlandırmaqda haqlı olduğum indi həmin qüvvələrin "ağsaqqalları" tərəfindən dolayısı ilə etiraf olunur.

Əslində bu, yeni plan da deyil. Hələ Dağlıq Qarabağ münaqişəsi yeni başlayanda erməni lobbisi öz mənfur arzusuna çatmaq üçün Bakını Beyruta, Azərbaycanı Livana çevirmək istəyirdi və bunu gizlətmirdi. Həmin qüvvələr və "sapı özümüzdən olan baltalar" 2003 və 2008-ci illərdə ciddi cəhdlə buna çalışdılar. Lakin, o dövrdə Prezident İlham Əliyevin xalqla birliyinə və dəmir iradəsinə çırpılaraq geri çəkildilər. Beləəri 2013-cü ildə yeni bir məkrli plan quraraq, xarici dairələrin köməyi ilə " Milyarderlər İttifaqı" yaratdı və "aldanmış kəvakib"dən istifadə edərək hakimiyyəti ələ keçirməyə cəhd etdilər. Xoşbəxtlikdən hər dəfə də bu antimilli ünsürlər ölkə Prezidentinin dəmir iradəsi, onun sədaqətli silahdaşlarının yekdil mövqeyi və ən əsası, Azərbaycan xalqının keçilməz müqaviməti ilə üzləşərək necə gəlmişdilərsə, eləcə də rədd olub getdilər. Bu gün də onlar yatmayıb, sadəcə olaraq qəfil yaxalandıqları üçün hazırlıqsızdırlar. Odur ki, güman qalıb onların daimi bacardıqları işə - xəyanətə, hiyləyə və bir də söyüşə. Bu dəfə "livanlaşdırma" termini də dəyişib və "suriyalaşdırma" ilə əvəz olunub".

**Əli Həsənovdan sonra Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov APA-ya müsahibəsində açıq şəkildə bildirib ki, bu qrupun havadarlarının kim olmasını bilirlər. N.İbrahimov da vurğulayıb ki, məqsəd Azərbaycanı içəridən çalxalamaq, xaos yaratmaq və gələcəkdə Azərbaycanda Suriya, Liviya kimi ölkələrin düşdüyü vəziyyəti yaratmaqdır. N.İbrahimovun açıqlamasından belə görünür ki, hakimiyyət həmin mühacirlərin şəxsi həyatları ilə bağlı da geniş bilgiyə sahibdir:** "Bu gün söyüş və təhqir metodu ilə guya siyasi mübarizə apardıqlarını zənn edənlərin sayı 4-5 nəfərdir, onların da ətrafında birləşənlərin sayı bütün Avropa üzrə maksimum 30-40 nəfər olar, ya olmaz. Hər yerdə də eyni adamlardır. Biz araşdırmışıq ki, bunların əksəriyyəti heç yerdə işləmir, demək ki, haradansa maliyyələşirlər. Əlbəttə ki, havadarları var, onlara vəsait verən konkret qruplar var, yəni onları Azərbaycan dövlətini sevməyən dairələr maliyyələşdirir. Eyni zamanda müəyyən aldanmış insanlar da var. İndi ad çəkməyəcəyəm. Amma burda onlara mesajımızı çatdıracağam. Azərbaycanın daxilində və xaricində kim onlara havadarlıq edirsə, Suriyanı və Liviyanı görüb xalq qarşısında məsuliyyətlərini dərk etsinlər. Əgər Allah eləməsin, sabah Azərbaycanda həmin ölkələrdəki vəziyyət təkrarlanarsa, bu, heç kimdən yan keçməyəcək. Belə bir söz var ki, inqilab birinci öz uşaqlarını yeyir. Allah bunu bizə göstərməsin, əgər bu ölkədə xaos yaranarsa, bəlkə də birinci zərbəsi elə onlara dəstək verənlərə dəyəcək. Mən indi bu qrupun havadarlarının adını çəkmirəm, ancaq bilsinlər ki, kim olduqlarını bilirik. Artıq yavaş-yavaş konturları bəlli olur. Qulaqlarını açıb eşitsinlər ki, Azərbaycanın prezidenti çox güclüdür, güclü komandası var və ölkənin idarəetmə sükanı çox möhkəm əllərdədir".


Abbas Abbasov


Hüseyn Abdullayev

Yuxarıda da qeyd etdiyimiz kimi, bu proseslərlə bağlı indiyə qədər ölkə mətbuatında bəzi şəxslərin adları çəkilib.

Məsələn, xaricdəki məlum mühacirləri maliyyələşdirənlər arasında sabiq nazir Eldar Mahmudovun adı tez-tez hallanır. Prezidentliyə namizəd Hafiz Hacıyev də İctimai Televiziyada namizədlər üçün təşkil olunan debatda iddia etmişdi ki, bu şəxsləri məhz Eldar Mahmudov maliyyələşdirir. Məlumat üçün qeyd edək ki, Eldar Mahmudov 11 ilə yaxın MTN naziri vəzifəsində olub. Bu isə onu deməyə əsas verir ki, Mahmudov böyük dövlət sirlərindən xəbərdardır və hakimiyyətin daxilindəki proseslərdən də məlumatlıdır.

Mühacirlərə yön verənlər sırasında baş nazirin sabiq birinci müavini, hazırda xaricdə yaşayan Abbas Abbasovun da adı hallanır. İndiyə qədər də rəsmi şəxslərin dilindən Abbas Abbasovla bağlı fikirlər səsləndirilib, onun dövlətimizə qarşı olan əməllərindən danışılıb. Xüsusilə də 2013-cü ildə hakimiyyətə qarşı yaradılmış "Milyarderlər ittifaqı"nda Abbasovun da önəmli rolunun olması kimsəyə sirr deyil.

"Avropanın hücumu"nun arxasındakı sirli kimlik kimi yuxarıda qeyd etdiyimiz şəxslərdən başqa sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun, Azərbaycan Beynəlxalq Universitetinin rektoru olmuş, hazırda xaricdə yaşayan Elşad Abdullayevin, Almaniyada mühacir həyatı yaşayan Hüseyn Abdullayevin də adları çəkilir.

Bəzi iddialara görə, bu prosesdə Azərbaycanın Serbiya Respublikasında, Monteneqroda və Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfir, keçmiş baş prokuror Eldar Həsənv da bu və ya digər formada iştirak edir. Düzdür, E.Həsənov dəfələrlə bildirib ki, o, bu hakimiyyətə sadiqdir, prezident vəfalıdı, amma onun adı vaxtaşırı müəyyən kombinasiyalarda, iqtidara qarşı oyunlarda hallanır. Eldar Həsənovun bu iddialarla bağlı hər hansı mövqeyi, açıqlaması olarsa, onu çap etməyə hazırıq.

Artıq prezident seçkisinə çox qısa bir zaman qalıb. Ehtimal olunur ki, seçkidən sonra hakimiyyət nümayəndələri konkret faktlarla "gizli əllər"in de-şifrə olunmuş planını ictimaiyyətə açıqlayacaqlar. Nəticədə bu projenin arxasında duran sirli kimliklər də hər kəsə məlum olacaq.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Mətbuat Şurasının fəaliyyətində yeniliklər olacaq

## Şuranın İdarə Heyətinin toplaşmamasının səbəbi bilindi

**Martın 10-da Azərbaycan jurnalistlərinin 7-ci qurultayı keçirilib. Qurultayda Mətbuat Şurası İdarə Heyətinin yeni tərkibi seçilib. Qurultaydan bir aya yaxın vaxt keçsə də, İdarə Heyəti yeni tərkibdə hələ toplanmayıb.**

Maraqlıdır, ilk toplantı nə vaxt baş tutacaq? Mətbuat Şurasının yeni rəhbərliyi hansı yeniliklər tətbiq edəcək? Hansısa yeni strategiya ortaya qoyulacaqmı?

Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli bildirdi ki, İdarə Heyətinin ilk toplantısının yubandığını söyləmək mümkün deyil: "Bir qədər yubanma var, o da obyektiv səbəblərlə bağlıdır. Bildiyiniz kimi, qurultaydan sonra uzunmüddətli bayram tətilləri oldu. Eyni zamanda Mətbuat Şurasının 15 illik yubileyi keçirildi. Buna görə də İdarə Heyəti toplaşmadı. Yəqin ki, bu günlərdə ilk toplantımız baş tutacaq".

**M.Ələsgərli onu da bildirdi ki, şuranın fəaliyyət strategiyası jurnalistlərin qurultayında müəyyənləşdirilib:** "İdarə Heyəti strategiyanı həyata keçirən idarəetmə orqanıdır. Qurultayda əsas müzakirə olunan məsələlərdən biri online medianın tənzimlənməsi idi. Online media ilə işi gücləndirmək üçün onların İdarə Heyətində təmsilçiliyi də gücləndirildi. Konkret həyata keçiriləcək tədbirlər barədə İdarə Heyəti qərar verəcək, lakin gözlənilir ki, online media ilə iş gücləndiriləcək".




**İdarə Heyətinin digər üzvü Azər Həsrət bildirdi ki, toplantının yubanması qarşıdan gələn prezident seçkiləri ilə bağlıdır:** "İdarə Heyətinin bütün üzvləri seçki prosesində öz fəaliyyət sahəsinə uyğun olaraq iştirak edir. Buna görə də İdarə Heyətinin toplanması yubanır. İndiki dövrdə biz medianın monitorinqini aparırıq".

**A.Həsrətin sözlərinə görə, böyük ehtimalla İdarə Heyətinin ilk iclası seçkilərdən sonra baş tutacaq:** "İlk iclasda bir sıra təşkilati məsələlərə baxılacaq: sədrin 2 müavini, şura komissiyalarının rəhbərləri müəyyənləşdiriləcək. Bunlar həll olunduqdan sonra şura öz işini davam etdirəcək. Onu da qeyd edim ki, qurultayda Mətbuat Şurasının statusu ilə bağlı müəyyən təkliflər səsləndirildi və prezidentin köməkçisi Əli Həsənov tərəfindən də dəstəkləndi. Düşünürəm ki, biz təşkilati məsələlər həll olunduqdan sonra Mətbuat Şurasının statusu ilə bağlı hazırlıqlar barədə fikirlərimizi bildirəcəyik".

**İdarə Heyəti üzvü bildirir ki, online medianın şurada təmsilçiliyi məsələsi gündəmdə olacaq:** "Düşünürəm ki, getdikcə Mətbuat Şurasının idarə olunmasında online medianın iştirakı daha da güclənəcək".

**İdarə Heyətinin daha bir üzvü, "Yeni Müsavat" media qrupunun rəhbəri Rauf Arifoğlu da deyir ki, ilk toplantının yubanması iki səbəblə bağlıdır:** "Toplaşmamağımızın əsas səbəbi qurultaydan sonra uzun bayram fasiləsidir. İndi toplaşmamağımızın səbəbi isə məncə, seçki prosesinin ən qızğın çağında olmağımızdır. Yəqin ki, yaxın günlərdə toplanacağıq".

**Heyət üzvünün fikrincə, Mətbuat Şurası yeni tərkibdə daha geniş, daha əhatəli media siyasətilə çıxış etməlidir:** "Bilirsiniz ki, media seqmentində Mətbuat Şurasının əhatə etmədiyi, edə bilmədiyi media nümunələri də var. Onların əksəriyyəti nyu-media nümunələri sayılır, o cümlədən sosial mediada ciddi fəaliyyət göstərən səhifələri olan insanlar, qruplar var. Biz onlarla bağlı da müəyyən strategiya düşünməliyik, onları da əhatə edəcək bir siyasət hazırlamalıyıq. Narazı kimi görünən, Mətbuat Şurasının fəaliyyətini qəbul etməyən bir sıra media quruluşları, media nümunələri var. Onlarla masaya oturub danışmaq, narazılığı media səhifələrindən otaqlara, müzakirə masalarına daşımaq üçün addımların atılmasının gərəkdiyini düşünürəm. Bununla bağlı təkliflərimi İdarə Heyətinin iclaslarında müzakirəyə təqdim edəcəm".

❑ **Dünya SAKİT**

# "Afiyəddin Cəlilovu və Şəmsi Rəhimovu bu banda..."

## Baş Prokurorluq və DİN birgə açıqlama yaydı

**Baş Prokurorluq və DİN birgə açıqlama yayıb. Açıqlamada bildirilib ki, son günlər ayrı-ayrı internet informasiya resurslarında fəaliyyəti ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq müstəntiqi ciddi qanun pozuntularına yol verdiyinə görə orqandan xaric olunmuşdur.**

Hazırda ölkə hüdudlarından kənarda yaşayan, oradan dövlətimizə və xalqımıza qarşı qarayaxma kampaniyasında fəal iştirak edən Ramin Nağıyevin "Turan.tv"yə verdiyi müsahibənin mətni yayımlanıb: "Birmənalı olaraq bildiririk ki, müsahibədə qeyd olunan iddialar tamamilə yalan və böhtan xarakterli olmaqla, polis, prokurorluq və digər hüquq-mühafizə orqanlarının cinayətkarlığa qarşı apardığı səmərəli mübarizəyə kölgə salmaq məqsədi daşıyır və həqiqətə zidd olmaqla bir-birini təkzib edən saxta uydurmalardan başqa bir şey deyil.

Polis, prokurorluq və digər hüquq-mühafizə orqanlarının peşəkarlıqla həyata keçirdikləri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilib ki, o vaxtkı Xüsusi təyinatlı polis dəstəsinin komandiri Rövşən Cavadov, qardaşı Mahir Cavadov, eləcə də Əliyusif Tahirov, Elçin Əmiraslanov, Dəyanət Kərimov, Sultan Səlimov, Səxavət Hümbətov, Şəmsi Abdullayev və qeyriləri silahlı cinayətkar birlik təşkil edərək cəmiyyətdə dövlətə qarşı inamsızlıq hissi formalaşdırmaq, ictimai-siyasi sabitliyi pozmaq, hakimiyyəti qanunsuz yolla ələ keçirmək və bu cinayətkar niyyətlərinin reallaşmasında onlara mane ola biləcək dövlət və ictimai xadimlərin terror yolu ilə aradan götürülməsi üçün sui-qəsd planları işləyib hazırlayıblar. Onların 1993-cü ilin aprel ayının 23-də Bakı Ali Hərbi Dənizçilik Məktəbinin rəisi Eduard Hüseynovun, 1994-cü ilin sentyabr ayının 29-da Ali Sovetin sədr müavini Afiyəddin Cəlilovun və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi



Afiyəddin Cəlilov



Şəmsi Rəhimov

Rəhimovun qətlə yetirmələri təkzibolunmaz dəlillərlə tam sübuta yetirilib.

Təqsirləndirilən şəxslərin cinayət əməlləri cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq qaydada çəkişmə, aşkarlıq, obyektivlik, müdafiə hüququnun təmin edilməsi və digər prinsiplərinə riayət olunmaqla toplanmış dəlillərlə, özlərinin etirafı, şahid və zərərçəkmiş şəxslərin ifadələri, ekspertiza rəyləri və işin digər faktiki halları ilə tam sübuta yetirilib. Qanuni qüvvəyə minmiş məhkəmə hökmlərinə əsasən, təqsirləndirilən şəxslərin qeyd olunan cinayət əməllərini Rövşən və Mahir Cavadov qardaşlarının ləğv olunmuş Xüsusi təyinatlı polis dəstəsinin üzvləri və qeyrilərini cəlb etməklə təşkil və rəhbərlik etdikləri, sabit silahlı qrup tərəfindən hakimiyyətin zorla ələ keçirilməsi, ictimai qaydanın qorunması ilə əlaqədar Azərbaycan Respublikasının dövlət orqanlarının normal fəaliyyətinin sarsıdılması, bandanın bu kimi hazırlanan və törədilmiş cinayət əməllərindən məlumatlı olan vəzifəli şəxslərin fiziki məhvi məqsədi ilə törədilməsi tutarlı dəlillərlə sübuta yetirilib.

Törətdikləri ağır cinayət əməllərinə görə həmin birlik və bandaların əksər üzvləri Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmələrin hökmü ilə ömürlük və digər zunmüddətli azadlıqdan məhrumetmə cəzalarına məhkum ediliblər".

**Baş Prokurorluq və DİN Azərbaycan vətəndaşlarının nəzərinə onu da çatdırır ki, qanunsuz yolla hakimiyyətə yiyələnmək məqsədilə terror hadisələri törətməkdən belə çəkinməyən silahlı mütəşəkkil cinayətkar dəstənin üzvləri və onların havadarları hələ də vaxtilə həyata keçirdikləri qətlləri müxtəlif üsullarla pərdələməklə ictimaiyyətin gözündə özlərinin günahsız, məsum obrazlarını yaratmağa uğursuz cəhdlər edirlər:** "Unudurlar ki, görkəmli dövlət xadimlərinin qətlə yetirilməsi ilə nəticələnmiş ağır cinayətlərin müəllifləri məhz özləridir. Buna görə də onlar qanunla müəyyən olunmuş cəzadan əlavə, həm də xalqımızın ən qatı nifrətini ömürlük qazanıblar".

# 72 yaşı tamam olan Əli İnsanov özünü həbsxanada müalicə edir

## Sabiq nazirin azadlığa buraxılıb-buraxılmayacağı seçkidən sonra bilinəcək

**Martın 22-də 2005-ci ilin oktyabrından həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun 72 yaşı tamam oldu. Sabiq nazirin martda gözlənilən əfv fərmanı ilə azadlığa buraxılacağı deyilirdi.**

Amma əfv fərmanı imzalanması böyük ehtimalla may ayına-yeni prezident seçkisindən sonraya qaldı. İddia olunur ki, sabiq nazirin azadlığa buraxılması üçün ölkədən getməsi şərti qoyulub. Ölkə iqtidarının onu azad edəcəyi halda ölkəni tərk etməsi şərti qoyması haqda iddia inandırıcı görünür. Çünki İnsanovla eyni hadisəyə görə 2005-ci ildə həbs edilən sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyev və qardaşı Rafiq Əliyev məhz belə anlaşma yolu ilə azadlığa çıxdıqdan sonra ölkəni tərk ediblər.

Sabiq səhiyyə nazirinin azadlığa buraxıldıqdan sonra Almaniyaya köçə biləcəyi deyilir. Almaniyanın seçilməsinin təsadüf olmadığı vurğulanır. İddia olunur ki, İnsanovun ailəsinin əksər üzvləri bu ölkədə yaşayır.

Sabiq səhiyyə naziri Əli İnsanov vəkili ilə görüşüb. Bu barədə "Trend"ə açıqlamasında Ə.İnsanovun vəkili Toğrul Babayev məlumat verib. Vəkil bildirib ki, sabiq nazir özünü normal hiss etsə də, səhhətində problemlər qalmaqdadır: **"Səhhətində hələ də problemlər var. Müalicə müəssisəsinə köçürülməsi barədə müraciət etməyib, tibb müəssisəsinə getmir, öz-özünü müalicə edir".**



Qeyd edək ki, Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs olunub. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham edilib. 2007-ci ilin aprel ayında o, əmlakı müsadirə olunmaqla 11 il müddətinə azadlıqdan məhrum olunub. Ə. İnsanovun cəza müddəti ötən ilin oktyabr ayında başa çatırdı.

2017-ci ildə Ə.İnsanov Cinayət Məcəlləsinin 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2 (Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, bu maddədə göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1-ci (Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi, eyni əməllər təkrar törədildikdə) maddələri ilə ittiham olunub və Qaradağ rayon Məhkəməsinin hökmü ilə 7 il 5 gün müddətinə azadlıqdan məhrum edilib.

Bu ilin yanvar ayında Ali Məhkəmədə Əli İnsanovun barəsində olan hökmdən verilən kasasiya şikayətinə baxılıb. Hakim Fərhad Kərimovun sədrlik etdiyi kollegiyanın qərarına əsasən, Əli İnsanovun kasasiya şikayəti təmin edilməyib.

Ə.İnsanov prosesdə iştirak etmək istəməməsi barədə Ali Məhkəməyə yazılı ərizə göndərib.

❑ **ORXAN, "Yeni Müsavat"**

# 104 il öncə və indi - Bakı Moskva üçün hələ də Qara şəhərdir



**Xalid KAZIMLI**

**Bu günlər bir rus yazıçısının romanını oxuyuram, əsərdə hadisələr 104 il öncə Bakıda baş verir.Yazıçı bir əsr əvvəlin Bakısını gözəl təsvir edib: şoranlıq, neft tullantılarının yaratdığı gölməçələr, mazuta bulaşmış torpaq, qara tüstülü səma, böyük pulların dövr olunduğu, ilk baxışdan sırf Avropa şəhəri kimi görünən mərkəz, onun içindəki Asiya-Şərq gettosu və s.**

Romanda bir neçə detal var ki, həm bu günlə səsləşir, həm də tarixi gerçəkliyi əks etdirir. Yazıçı Bakıdan bəhs edərkən onu tez-tez "Rusiya imperiyasının ucqar şəhəri" adlandırır, eyni zamanda qeyd edir ki, Bakı rus imperiyasının ən varlı, ən bahalı şəhəridir.

"Abşeron yarımadasındakı milyonçuların sayı bütün Rusiyadakı milyonçuların sayından çoxdur" - bu, həmin romandan sitatdır. Bu da: "Rusiyanın başqa yerində 100 min rublu olan adam zəngin sayılırsa, Bakıda zənginlik milyondan başlayır".

Bu, 104 il əvvəlin söhbətidir. 100-120, hətta 70-80 il öncə Bakı Rusiyanın qida mənbəyi olub, imperiya gözünü yurdumuzun paytaxtına ona görə acgözlüklə, iştahla dikib ki, buranın sərvətindən istifadə eləsin, daha dəqiqi, onu sümürüb aparsın.

O dövrdə qəzetlər belə bir təzaddan yazıblar: "Qafqaz canişinliyinin mərkəzi Tiflis olsa da, Tiflisin meri Bakının merindən 5 dəfə az maaş alır". Elə bolşevik inqilabçılar (o cümlədən Stalin, Beriya, Mikoyan və b.) da Bakıya ona görə daraşıblar ki, inqilabi fəaliyyətlərini maliyyələşdirmək, qəzetlərini burada çıxarmaq üçün maddi vəsaiti Bakıda daha asan tapırmışlar. Bakıda xərac yığmaq, soyğunçuluq etmək üçün geniş imkanlar varmış.

Moskvanın, Kremldəkilərin Bakıya ənənəvi münasibəti hələ də dəyişməyib.

Bakı hələ də onlar üçün neft və milyardlar səltənətidir və rus siyasilər bu sərvətdən barınmaq üçün əllərindən gələn hər fırıldağa, təzyiqə əl atırlar.

Budur, mediada belə xəbərlər var: Rusiya Ermənistana faizsiz kredit verəcək ki, ermənilər "İsgəndər" raket kompleksləri alsınlar.

Aydın məsələdir ki, ermənilər bu "İsgəndər"ləri bizə tuşlamaq üçün alırlar, İrana, Türkiyəyə tuşlayası deyillər ki. Onlar məhz bizimlə müharibə vəziyyətindədirlər.

Bu halda biz nə etməliyik? Əlbəttə, biz də həmin silahların eynisindən almalıyıq ki, özümüzü, torpağımızı qoruyaq.

Belə olanda qara neftdən gələn yaşıl pullar əlimizdən çıxacaqmı? Çıxacaq. Həm də konteynerlərlə.

Yaxşı, Rusiya bu və ya digər silahları bizə ucuza, yaxud da faizsiz kreditlə verəcəkmi? Əsla. Biz o silahları daha baha qiymətə alacağıq, "sizin sərvətiniz, valyuta ehtiyatınız çoxdur" deyə bizə endirim də etməyəcəklər. Hər halda, indiyədək etməyiblər.

Amma olub ki, Ermənistana 1 milyard dollarlıq silah-sursatı müftə-müsəlləm veriblər. Onlara müftə, bizə baha-baha - budur Kremlin Qafqaz siyasəti.

Bu, həm 104 il öncə belə olub, bu günlərdə də belədir, ötən əsrin ən sakit onilliklərindən olan 60-70-ci illərdə də beləyidi. Kreml Azərbaycanda qazanılan pulların böyük hissəsini mərkəzi bankda saxlayır, sonra ondan Ermənistana dotasiya ayırırdı.

Məsələn, Moskva neftdən gələn hər 100 manatın 93-nü götürür, 7-sini ölkəmizə verirmiş. Bunu sovet dönəmində neft sənayesində çalışan mütəxəssislər daha dəqiq bilər.

Ancaq sovet dönəmində milyonçu sovxozlardan birinin rəhbəri olmuş şəxs bu sətirlərin müəllifinə şəxsən danışıb ki, 1981-ci ildə onun təsərrüfatının qazandığı 10 milyon rubl pul sovxozdan alınaraq ümumittifaq büdcəsinə köçürülüb, oradan da Ermənistanın təsərrüfatlarına verilib.

Başqa sözlə, sovet dönəmində Azərbaycan həm də Ermənistanı dolandıran bir respublika olub. Bəlkə də bu üzdən idi ki, Azərbaycanda ərzaq və geyim sarıdan qıtlıq olduğu halda qonşu dövlətdə hər şey tapılırdı və bol idi.

Moskvanın bu iki Qafqaz dövləti arasında yeritdiyi ayrı-seçkilik siyasəti hələ də davam edir.

Qeyr-rəsmi söhbətlərə görə, Kremldə bəzi başbilənlər hələ də Azərbaycandan fantastik məbləğdə xəraclar tələb edir.

Bu ilin payızında dövlət müstəqilliyi qazandığımızın 27 ili tamam olacaq, rus imperiyası hələ də bizdən əl çəkməyib və əl çəkənə oxşamır. Bakı Rusiya üçün hələ də Qara şəhərdir.

YENİ MÜSAVAT
N 71 (6960) 4 aprel 2018



# Adam dönəri

Zamin HACI
zaminhaci@gmail.com

"Eyvanın cənnətdi, üstü meşəlik,
Ələ düşməz belə xəlvət guşəlik.
Sənə qonaq gəlib bircə gecəlik,
Sonra genə Mahmud Miskin olaydım"

***(Göyçəli aşıq Miskin Mahmud, 17-ci əsr)***

**Biri deyir, özümə nifrət edirəm, o biri deyir, nəvələrim internetdə haqqımda söyüş oxuyub dilxor olurlar. Balıq Hafizin gəldiyi nəticə nə qədər təbii olsa da, Hadı müəllimin dilxorçuluğu o dərəcədə süni görünür. Çünki Hadı müəllim hazırda internet məkanında aparılan söyüşmələrin qurbanlarından biri kimi özünü təqdim edərək bir növ iqtidara köynəkcə yaxın olduğunu göstərmək istəyir. AYB sədri Anar kimi. Ondan da son söyüş əhvalatlarına münasibət soruşanda demişdi heç kimi təhqir eləmək olmaz. Yəni "mənin özümü də elə söyürlər". Halbuki Hadı müəllimin və AYB sədrinin daimi kəskin münasibət obyektlərindən olmaları diqqətli oxucularımıza sirr deyildir, diqqətsiz oxucular da gedib Afaq Aslanın şəkillərinə baxsınlar.**

Mövqe qoymaq lazımdırsa, zəhmət çəkin, birmənalı formada qoyun. Yoxsa özünü də zərərçəkən kimi göstərmək, aktual temanın içinə dürtülmək nə məna daşıyır? Bu, təxminən AMEA Coğrafiya İnstitutunun şefi Ramiz müəllimin "üzrxahlıq" açıqlamasına oxşayır. Deyir, bir jurnalist haqqımda pis yazıb əsəbləşdirmişdi, ona görə hamınızı söydüm. Əcəb yanaşmadır. Ona görə bizdə coğrafiya elmi bərbad kökdədir. Uşağın məktəbində dəhlizdən Xudafərin körpüsünün şəklini asıb altından "Zəngilan rayonu" yazmışdılar. Mən 5 illik uzun və gərgin mübarizədən sonra nəhayət, o yazını dəyişdirə bildim. Doğrusu, çoxdandır baxmıram, ümid edirəm körpünün yerinə Praqa körpüsünün şəklini asıb təqdimat olaraq da "Qaxda şəlalə" yazmayıblar.

İnsan həyatına hörmət qoyulmadığı üçün belənçik axmaq durumlarla üzləşirik. Camaatı sevişməyə qoymursansa, axırı söyüşmək olacaqdır - bu, "iki vur iki dörddür, rəhbərlik istəsə uzağı altı" tipində bir həqiqətdir. Sevişmə, söyüşmə, yıxıl, öl. Qəbristanlıq sabitliyi istəyirlər. O üzdən qəbristanlıqlarda yer neçəyə olsun, başdaşını hansı uzunluqda qayırsaq rəhmətlik cəhənnəmin isti bucağında donmaz və sairə temalar davamlı aktual olur.

Görün, insan həyatı necə ucuzluq olubdur ki, guya istehlakçıların hüquqlarını qoruyan məşhur lotularımızdan biri bugünlərdə açıqlama vermişdi: "Bakıda dönərə ölü adam əti vururlar". Təsəvvür edin. Bu dərəcədə mənasız olmuşuq. "Qardaş, mənə adamın baldır ətindən lavaşda bir dönər", "Uşaq kəsmişik, tombik dönər var 1 manata", "Tələbələr üçün dekanın boşqabda dönəri 50 qəpiyə, üstündə ayran pulsuz!" Dəlixanadır. Ya hər kəs ağzını Allah yolunda qoyub gicləməklə məşğuldur, ya da bizdə insan həyatı doğrudan bu qədər absurda çatmışdır.

Bu mənada bəzi deputatın medallarımızın çoxluğuna qısqanc yanaşması paxıllıqdan doğur. Dünən qanun seximizdə gəmiçilikdə xidmətlərə görə medalının təsis olunması qanunu müzakirə edilərkən bu mübahisə ortaya çıxıbdır. Ancaq "Meşədə çaqqal az idi, biri də gəmiylə gəldi" kimi mükəmməl coğrafi ata sözü olan *(get belə şeylər oxu ey, Ramiz əkə, jurnalistləri söyüncə)* xalq üçün gəmiçilik medalları mütləq lazımdır. O cümlədən, Həştərxandan qənd gətirən gəmiçiyə əməkdar matros adının, adam ətindən dönəri kəşf eləmiş kulinarımıza isə xalq dönərçisi diplomunun verilməsi zəruridir. Hələ çox işlər görülməlidir. "Bakıda avtobusların marşruta buraxılmasının 100 illiyi" xatirə medalının, "Şəkidə ən yaxşı anekdot danışan kişiyə 3 dərəcədə Hacı dayı" ordeninin təsisi də gündəmdədir. Bu isə deyir, medal çoxdur. Sənə nə? Cəlal əmi demişkən, almısan mandatı, sakit otur yerində.

Medal almağa qoymursan, söyüşməyə qoymursan, dönər bişirməyə qoymursan... Bəs bu camaat neyləsin? Saqqız alıb çeynəsin?



# Rusiya Xəzəri hərbi nəzarətə götürür-

## "Güclü yumruq" kimə qarşıdır?

Kremlin Xəzərdə donanmasını gücləndirməsi qərarı Xəzəryanı dövlətlər, o cümlədən rəsmi Bakı üçün risklidir; Qərbdə sıxışdırılan Rusiya indi hər şeydən və hamıdan şübhəlidir...

**Aprelin 2-də Rusiyanın müdafiə naziri Sergey Şoyqu Hərbi Dəniz Qüvvələrinin Xəzər donanmasının bazasının Həştərxandan Dağıstana, Kaspiysk şəhərinə köçürüləcəyini rəsmən elan edib. Virtualaz.org xəbər verir ki, nazir hazırda Kaspiyskdə sahil infrastrukturunun və hərbçilər üçün mənzillərin inşa edildiyini bildirib.**

"Xəzər donanmasının Kaspiyskə köçürülməsi barədə qərar qəbul edilib. Orada hazırda nəhəng tikinti gedir, liman, xidmət məntəqələri, mənzillər və s. tikilir. Donanmada zabitlərimizin və hərbi qulluqçularımızın sayı dəfələrlə artırılacaq" - Şoyqu Müdafiə Nazirliyinin rəhbərliyi ilə müşavirə zamanı deyib.

Rusiyanın Xəzər donanmasını Mahaçqala yaxınlığındakı Kaspiysk şəhərinə köçürəcəyi barədə məlumatlar əvvəldən var idi. Bu qərar ötən ilin avqustunda Müdafiə Nazirliyinin kollegiyasında qəbul edilib. Bundan bir ay sonra müdafiə nazirinin müavini Ruslan Tsalikov Kaspiyskə gedərək yeni bazanın tikilməsi üçün nəzərdə tutulan əraziyə baxış keçirmişdi.

Müdafiə Nazirliyinin planına görə bazanın tikintisinin birinci mərhələsi gələn il yekunlaşacaq. Yaxın iki ildə Kaspiysk sahillərində dənizin dibinin dərinləşdirilməsi, gəmilərin lövbər salması üçün qurğular və digər yerüstü infrastruktur tikiləcək. 2020-ci ildə isə Kaspiyskdə hərbi hospital, hərbçilər üçün kazarma, zabitlər üçün mənzillər hazır olacaq. Hərbi baza hər cür mümkün təbii fəlakətlərdən və düşmən hücumundan müdafiə olunacaq.

Kaspiyskdə bundan əvvəl də Rusiyanın Xəzər donanmasının qüvvələrinin bir hissəsi dislokasiya olunub. Burada donanmanın beş hərbi bölməsi - 106-cı sahil mühafizə briqadası, 250-ci qvardiya gəmi diviziyonu, 242-ci gəmi desant diviziyonu, 410-cu əlahiddə dəniz piyada batalyonu, əlahiddə radiotexniki mərkəz yerləşir. Mahaçqalada isə sualtı diversiya dəstələrinə qarşı mübarizə üzrə 137-ci xüsusi təyinatlı dəstə dislokasiya olunub.

Rusiya onsuz da son illərdə Xəzər donanmasını durmadan gücləndirirdi. Hərbi Dəniz Qüvvələrinin silahlanmasına qəbul edilən ən yeni raket gəmiləri ilk növbədə Xəzər donanmasına verilirdi. Qeyd edək ki, sovet dövründə Xəzər donanmasının bazası Bakıda yerləşirdi. 1992-ci ildə bazanın qərargahı və qüvvələrinin əsas hissəsi Həştərxana daşındı.

**Ehtiyatda olan general, Rusiya silahlı qüvvələrinin ehtiyatda olan zabitlər Milli Assosiasiyasının direktoru Vladimir Boqatıryev isə "Sputnik"ə açıqlamasında deyib ki, bazanın yerinin dəyişməsi silahlı qüvvələrin inkişafı planının bir hissəsidir.**

"Xəzər donanması müəyyən vaxtdan etibarən bu regionda operativ hərbi-dəniz birləşməsi kimi çox mühüm rol oynamağa başlayıb. Bundan əlavə, Xəzər hövzəsi "Kalibr" raketlərinin imkanları sayəsində Yaxın Şərq, Qara dəniz, Orta Asiya və digər istiqamətlərdə strateji rol oynaya bilər" - Boqatıryev deyib.




Rusiya Hərbi Dəniz Donanmasının keçmiş qərargah rəisi, admiral Viktor Kravçenko açıqlaması isə rəsmi Moskvanın planlarına daha dəqiq işıq salır. "Bizim Xəzərdə güclü yumruğumuz olacaq. Bütün qüvvələr bir yerdə cəmləşəcək və donanma hava şəraitindən asılı olmayacaq" deyə, admiral bildirib.

Rusiyanın Xəzərdə donanmasını gücləndirməsi qərarı əlbəttə ki, Xəzəryanı dövlətlər, o cümlədən rəsmi Bakı üçün arzuedilən deyil. Doğrudur, Rusiya illərdir ki, Xəzərdə özünü söz sahibi hesab edir və İranı nəzərə almasaq, buradan hətta dünyaya meydan oxumağa meyllidir. Məsələn, 2015-ci ildə Suriyada İŞİD mövqelərini Xəzərdən "Kalibr" qanadlı raketləri ilə vurulmasını xatırlatmaq kifayətdir. Baxmayaraq ki, Rusiya özü sözdə Xəzəri barış hövzəsi elan etsə də, buradakı hərbi potensialını və gücünü göstərməkdə daima maraqlı olub. Bu, xüsusilə 2009-2010-cu illərdə ABŞ-ın Xəzərə marağının artmasından sonra daha qabarıq özünü göstərdi. Yada salaq ki, bu illərdə ABŞ Xəzər təhlükəsizliyi ilə bağlı xüsusilə Azərbaycanla intensiv əməkdaşlıq edirdi. Bu əməkdaşlıq çərçivəsində ABŞ Azərbaycana Xəzərdə enerji infrastrukturlarının mühafizəsi üçün hərbi katerlər verdi, sualtı xüsusi təyinatlı qüvvələr hazırlanmasında iştirak etdi. Birləşmiş Ştatlar Buş administrasiyası dövründə bu əməkdaşlığı genişləndirərək Xəzərdə enerji infrastrukturlarının mühafizəsi adı altında "X-Band" tipli radar kompleksi də yerləşdirməyi planlaşdırırdı. Lakin sonradan Azərbaycanla ABŞ arasında münasibətlər xeyli korlandı, Rusiya da Xəzərdə təhlükəsizlik məsələsində ABŞ-ın cəlb olunmasına imkan verməmək üçün Bakıya təzyiqlər göstərdi, eyni zamanda yeni Amerika administrasiyasının regionla bağlı prioritetləri dəyişdi.

2010-cu ildə Bakıda keçirilmiş Xəzər sammitində isə imzalanan sazişdə dənizdə təhlükəsizlik məsələsinin ancaq sahilyanı ölkələrin səlahiyyətində olduğu razılaşdırıldı.

ABŞ-ın Xəzərə maraq göstərməsi təkcə Rusiyanı deyil, İranı da narahat edirdi və bu səbəbdən rəsmi Bakının bu əməkdaşlığı genişləndirmək istəyi xeyli riskli görünürdü. Həm Obama dövründə, həm Donald Trampın bir illik hakimiyyətində ABŞ-ın Xəzərdə fəallığı olmadı.

**Ötən il ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza "Cənubi Qafqaz Beynəlxalq Arenada: Region və Ətrafında Əməkdaşlıq və Rəqabət" konfransında maraqlı açıqlama vermişdi. Onun sözlərinə görə, ABŞ-ın əvvəldən də Xəzər regionunda marağı o qədər güclü olmayıb:** "Düzdür, burada ABŞ şirkətləri var idi, amma bizim Bakı-Tiflis-Ceyhan neft boru kəmərini dəstəkləməyimizin səbəbi regionda enerji axınının təmin edilməsidir".

Bundan əlavə, o bildirib ki, Qafqaz regionundakı məsələlərin həll edilməsində ABŞ-ın mövqeyi hazırda zəifdir, çünki yeni administrasiyanın regionla bağlı konkret mövqeyi yoxdur.

Dünyada sıxışdırılan Rusiya indi hər şeydən və hamıdan şübhəlidir. Üstəlik, özünü qorumaq üçün indi ancaq hərbi potensialına arxayındır. "Bizim Xəzərdə güclü yumruğumuz olacaq" deyən, admiral Vladimir Komodoyev də buna açıq işarə edib.

❑ **"YM"**

# Bakı-Tehran əlaqələri yeni sınaqla üzə-üzə

**Azərbaycan-İran əlaqələri obyektiv və subyektiv əngəllərə rəğmən, dinamik məcrada inkişaf edir. Xüsusən də son illər iki qonşu dövlət arasında əməkdaşlıq daha geniş sahələri əhatə eləməklə keyfiyyətcə yeni bir mərhələyə adlayıb. İran prezidenti Həsən Ruhaninin son Bakı səfəri bu yöndə qənaətləri xeyli möhkəmlətmiş oldu.**




# ABŞ İranı Azərbaycandan hədəf almaq istəyir - sensasion gəlişmə

## Yeni dövlət katibinin gəlişi ilə Amerikanın regionla bağlı siyasətinə kardinal dəyişiklik istisna deyil; **ABŞ nəşrindən Ağ Evə ilginc təklif:** "Bunlar edilsə, İranla Rusiyanın Qafqazdan ayağı kəsilər, Qarabağ məsələsi isə..."

Böyük cənub qonşumuzla münasibətlərin yüksək səviyyədə olması, iqtisadi-ticari, humanitar əlaqələrin genişlənməsi, iri regional və qlobal layihələrdə ortaq iştirak, sübhəsiz ki, hər iki ölkənin və xalqın maraqlarına tam cavab verir. Eyni zamanda Azərbaycanla İranı yaxşı mənada qarşılıqlı asılı edərək, bir-birinə bağlayır. Tehranla yaxın əlaqələr həmçinin Dağlıq Qarabağ məsələsində Bakının İrana təsir imkanlarının artması, cənub qonşumuzun işğalçı Ermənistandan uzaqlaşması deməkdir ki, bu da az önəm kəsb eləmir.

Ancaq belə görünür, Azərbaycan-İran əlaqələri çox tezliklə ciddi sınağa çəkilə bilər. Söhbət öncəliklə, Donald Trampın ABŞ prezidenti seçilməsi ilə İrana və Rusiyaya qarşı Amerika siyasətinin kəskinləşməsindən gedir. İrana münasibətdə qismən mötədil baxışlara malik Reks Tillersonun dövlət katibi postundan uzaqlaşdırılaraq yerinə qatı antiirançı və antirusiyaçı Maykl Pompeonun gətirilməsi bu xüsusda az şey demir və hətta Amerikanın müəyyən planlarının anonsu deməkdir.

*****

**"ABŞ-ın milli təhlükəsizliyi üzrə yeni komandası İran və onun maraqlarına zərbə vurmağa meyllənir. Tramp administrasiyasının hücum planı artıq Avropa Birliyində, Rusiyada və Çində ciddi mübahisələr və narahatlıq doğurub - o ki ola İranın özündə. Ancaq Tehranla nüvə anlaşmasına diplomatik hücum Vaşinqtonun öhdəsində olan yeganə variant deyil". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə tanınmış amerikalı analitik Stiven Blank ABŞ nəşri "The Hill" üçün yazdığı təhlili məqalədə bildirir.**

**Müəllif daha sonra yazır:** "Əgər ABŞ administrasiyası İranı təcrid eləmək istəyirsə, o zaman o, İranın Qafqazda, xüsusən də Azərbaycan və Ermənistanla əlaqələrini pozmaq üçün addımlar ata bilər. Bu əlaqələr Tehran üçün həlledici əhəmiyyətə malikdir, çünki iki ölkə İranın şimal və qərb sərhədlərində yerləşir. ABŞ nəinki Qafqazda öz maraqlarını irəli apara bilər, həmçinin, İrana və onun Rusiya timsalında tərəfdaşına zərbə endirə bilər".

**Məqalədə deyilir ki, Bakı ilə Tehran arasında uzun illər bir-birinə qarşı qarşılıqlı şübhələr olub:** "Azərbaycan hələ də İrana etimad bəsləmir - baxmayaraq ki, iki ölkə arasında əlaqələr 2012-ci ildən sonra yaxşılaşıb. İran Azərbaycana İrandakı azərbaycanlı əhalini fəallaşdırmaq üçün istifadə oluna biləcək meydan kimi baxır. Tehran habelə Azərbaycanı İsrail və ABŞ-la dost münasibətlər saxlayan xəyanətkar şiə ölkəsi qismində görür. Bundan əlavə, Azərbaycan energetik sferada İranın rəqibidir. Hazırda İran öz şimal sərhədini möhkəmləndirməkdə və Bakının Vaşinqtona həddən artıq yaxınlaşmanı önləməkdə maraqlıdır".

**Müəllifə görə, Ermənistan isə əksinə, İranın Azərbaycana davamlı antaqonist münasibəti səbəbindən Tehrana həddən artıq yaxındır:** "Öz ərazisində Rusiya bazaları saxlayan Ermənistan təkcə Moskvanın satelliti deyil, həm də İranın Qafqaz regionunda əsas tərəfdaşıdır. Bununla belə, Ermənistan Qərblə körpüləri yandırmağı da özünə rəva bilə bilməz. Belə çıxır ki, Tramp administrasiyası üçün yol açıqdır. Rusiyanın Qafqaz bölgəsindəki təsirini, İranın isə şıltaqlığını minimuma endirmək və burada sülhü təmin eləmək üçün stimullar və təzyiq siyasətini birləşdirmək lazımdır. Qarabağ konfliktinin nizamlanması üzrə öz üzərinə öhdəlik götürməklə, bu öhdəliyi faydalar sistemi və sanksiyalar vasitəsilə birləşdirməklə Ağ Ev ABŞ-ın regionda təsirini gücləndirmək imkanındadır. Tramp həmçinin, bir yandan Azərbaycanla Ermənistan arasında əlaqələrdən, digər yandan da Rusiya və İranla məsafə saxlamaqla Amerikanın maraqlarını irəli apara bilər. Arzuediləndir ki, Vaşinqton Yaxın Şərqdəki situasiyadan və İranla və ya Gürcüstanla münasibətlərdən asılı olmayaraq ayrıca olaraq diqqətini Qafqazdakı mövcudluğunu genişləndirməyə yönəltsin. Həmçinin, Vaşinqtonun marağındadır ki, Xəzərin enerji resursları Qafqazdan keçməklə Avropaya çatdırılsın. Amerikanın Qafqazda daha fəal olması Rusiyanın Türkiyəyə də təzyiqini azaldacaq ki, bu da Ankara ilə ABŞ arasında alyansın möhkəmlənməsi üçün əsas olacaq".

**Məqalənin sonunda deyilir:** "ABŞ bölgədə öz maraqlarını və demokratik dəyərləri effektiv şəkildə təmin eləmək üçün Azərbaycan və Ermənistanın təhlükəsizliyinin təmin edilməsində dərindən maraqlı olmalıdır. Potensial olaraq Amerika ikiqat uduşda ola bilər: birincisi, regionda öz təsirini artırmaqla və Azərbaycan və Ermənistanla əlaqələri gücləndirməklə o, sülhə kömək edə bilər. İkincisi, Moskva və Tehranın Qafqazda və qonşu rayonlarda təsirini azaltma imkanı əldə edər. Bir sıra ekspertlərə görə, ABŞ-ın bölgədə bir çox maraqları və prioritetləri var. Ancaq əgər Vaşinqton həqiqətən də İrana təzyiq göstərmək istəyirsə, o zaman bunu məhz Qafqazdan başlamaq lazımdır".

*****

Qafqaz isə həm də və ən əvvəl Azərbaycan deməkdir. Belə görünür ki, İrana qarşı ABŞ-ın yeni, hətta hərbi xarakterli planı var və həmin planda Azərbaycana da yer ayrılıb. Ancaq əvvəla, rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycan ərazisi İran əleyhinə üçüncü ölkə(lər) üçün plasdarm olmayacaq. Ölkə konstitusiyası da ərazimizdə üçüncü ölkənin hərbi qüvvələrinin yerləşdirilməsini yasaq edir. Sonuncu xarici hərbi baza - Qəbələ RLS bir neçə il öncə Azərbaycandan çıxarılıb.

Digər yandan, Amerika nəşrindəki bu yazı düşündürməyə də bilməz. Hər halda, Azərbaycan balaca dövlətdir və regional və qlobal güclərin təsir və təzyiqlərindən tam sığortalanmayıb. Üstəgəl, İran və Rusiya bizə həmsərhəd ölkələrdir, yəni "qapı qonşulardır". Necə deyərlər, ABŞ uzaqda, İran və Rusiya isə yaxında. O da sirr deyil ki, Moskva və Tehran Azərbaycanı qarışdırmaq üçün bəzi rıçaqlara malikdir və bu qəbildən planlar *(separatçı, dini xarakterli və s.)* hətta stol üstündədir - o ayrı məsələ ki, belə ssenarilər nəticə verəcək, ya yox.

Bundan əlavə, İranın hədəf alınmasına böyük ehtimalla, ABŞ-q qarşı qəzəbli olan, Tehranla "dərd ortağı" Rusiya da laqeyd qalmayacaq və Moskvanın verəcəyi reaksiya müəyyən mənada Bakıda da əks-səda doğura bilər. Nəhayət, ABŞ-ın sərt İran mövqeyini paylaşan İsrailin Azərbaycanın mühüm strateji tərəfdaşı olması faktı da yaddan çıxarıla bilməz.

Yaranmış vəziyyətdə rəsmi Bakının çevik diplomatik manevrlərlə İran, Rusiya və Qərb arasında ənənəvi balanslı və komplementar siyasəti qoruyub saxlaması yəqin ki, asan olmayacaq. Ancaq bu, mümkünsüz də deyil...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**



# Putin mayın 7-də and içəcək

**Rusiya Mərkəzi Seçki Komissiyasının sədri Ella Pamfilova Vladimir Putinə prezident vəsiqəsini təqdim edib.**

Məlumat Kremlin saytında yerləşdirilib.

Qeyd edək ki, Rusiyada prezident seçkiləri martın 18-də keçirilib. Vladimir Putinin mayın 7-də prezident kimi yenidən and içəcəyi planlaşdırılır.

# ABŞ silah anbarını Türkiyədən çıxardı



**ABŞ Hərbi Hava Qüvvələri Türkiyənin İncirlik hərbi bazasında saxladığı "Armag" mobil silah anbarını başqa yerə köçürüb.**

Axar.az xəbər verir ki, bu barədə "Hürriyet" məlumat verib.

Məlumata görə, artıq İncirlikdə bazaya ehtiyacın olmadığı və onun hərbi əməliyyatlar aparılan əraziyə yerləşdirildiyi bildirilib.

40 ton ağırlığı, 15 metr uzunluğu olan mobil silah anbarı C-5M Super Qalaksi nəqliyyat təyyarəsi ilə aparılıb.

Mobil silah anbarının yerləşdirildiyi ərazinin adı barədə məlumat verilməyib.

# BMT Baş Assambleyasının prezidenti Azərbaycana səfər edəcək



**Qoşulmama Hərəkatı çərçivəsində xarici işlər nazirlərinin aralıq konfransında iştirak etmək üçün Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 72-ci sessiyasının prezidenti Miroslav Lajçak Azərbaycana səfər edəcək.**

BMT-nin Azərbaycandakı nümayəndəliyindən verilən məlumata görə, o, "Dayanıqlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda keçirilən konfransın açılış sessiyasında çıxış edəcək.

Miroslav Lajçakın həmçinin Azərbaycan rəsmiləri və BMT-nin ölkə üzrə idarə heyəti ilə görüşləri nəzərdə tutulub.

Bundan başqa, Baş Assambleyanın prezidenti ADA Universitetində "Çoxtərəfli əməkdaşlığın hazırkı durumu" mövzusunda tələbələr qarşısında çıxış edəcək.

Səfər zamanı Miroslav Lajçakı kabinetinin rəhbəri Frantişek Rujiçka, baş müşaviri Abdelqani Merabet və ictimaiyyətlə əlaqələr üzrə müşaviri Katarina Kandt müşayiət edəcək.

# NATO rusiyalı diplomatlara viza verməkdən imtina etdi



**NATO Rusiyanın Brüssel nümayəndəliyində çalışmaq üçün göndərmək istədiyi diplomatlara viza verilməyəcəyini elan edib.**

Bu barədə Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko deyib.

"Bəli, Brüsseldə 7 nəfər arzuolunmaz şəxs elan edildi. Həm də bildirildi ki, daha 3 əməkdaşa viza verilməyəcək", - deyə o bildirib.

Qeyd edək ki, martın 4-də Rusiya Baş Təhqiqat İdarəsinin keçmiş polkovniki Sergey Skripal və qızı Yuliya Böyük Britaniyanın Slosberi şəhərinin mərkəzində huşsuz vəziyyətdə tapılıb. Britaniya hökuməti hər iki şəxsin zəhərləndiyini bildirib. Cavab tədbiri olaraq rəsmi London 23 rusiyalı diplomatı ölkədən çıxarıb. Britaniyanın bu qərarına dəstək olaraq Aİ-nin 16 ölkəsi, ABŞ, Kanada, Norveç, Avstraliya, Moldova, Albaniya, Makedoniya və Ukrayna da eyni addımı atıb. Ümumilikdə 150 rusiyalı diplomat bu ölkələrdən çıxarılıb (APA).

# "Əsas maraqlı proseslər seçkidən sonradır"

## Pənah Hüseyn: "Sərdar bəy istedadlı adamdır, lakin çərçivə ona da mane olur"

**Prezidentliyə namizədlərin İTV-də ödənişsiz efir vaxtı dünən başa çatdı. Namizədlərdən kimin hansı mövqedə olduğu bu debatlarda bir daha ortaya çıxmış oldu.**

**AXP sədri Pənah Hüseyn** "Yeni Müsavat"a bildirib ki, çıxışları izləyib və ADP-nin namizədi Sərdar Cəlaloğlunun üstün olduğu qənaətinə gəlib: "Namizəd qismində çıxış edən şəxslərin və onların nümayəndələrinin çıxışlarının əksəriyyətinə baxmışam. Sözün doğrusu, xüsusi siyasi həyəcan olmasa da və seçkinin mahiyyəti ilə bağlı hansısa bir gözləntim olmasa da, amma hər halda, bir siyasətçi olaraq çıxışları izləmək mənim üçün maraqlıdır. Sizə səmimi deyim ki, bütün əvvəlki seçkilərlə müqayisədə ən sönük məhz bu seçkilərdir. Ən azı müəyyən təhlillər üçün İTV-də gedən debatların əksəriyyətinə baxmışam. İlk üçüncü debatdan sonra, sözün doğrusu, mənim də marağımda bir xeyli azalma baş verdi. İlk debatlarda Hafiz Hacıyevin çıxışları müəyyən marağa səbəb olmuşdu. Amma sonra çıxışlarında çox bərbad dönüş baş verdi. Mən səmimi deyirəm ki, bununla da Hafiz Hacıyevi demək olar ki, sıradan çıxardılar. Sonuncu çıxışları onu, məncə, ictimai rəyin fokusundan kənara qoydu. Sərdar Cəlaloğlunun çıxışları isə əlbəttə ki, müəyyən çərçivə daxilində olsa da normal çıxışlardır. Sərdar bəy istedadlı adamdır, lakin çərçivə ona da istedadını, imkanını tam olaraq nümayiş etdirməyə mane olur. Amma hər halda, özünü nə qədər sıxsa da, Sərdar Cəlaloğlu maraqlı məsələlərə toxunur. Qalan namizədlər isə yəqin onlar özləri də razılaşar ki, yaddaqalan bir şey yoxdur".



**Sərdar Cəlaloğlunun debatda onu müdafiə etməsinə Pənah Hüseynin münasibətinə gəlincə, AXP sədri ADP sədri ilə şəxsi dostluq münasibətlərinin olduğunu dedi: "Sərdar bəylə siyasətçi münasibətlərdən əlavə şəxsi dostluq münasibətlərimiz var. Sərdar Cəlaloğlu və ADP ilə zaman-zaman müttəfiqlik, əməkdaşlıq münasibətlərimiz olub. Məni müdafiə etdiyi üçün ona təşəkkür edirəm. Hesab edirəm ki, Sərdar Cəlaloğlu, ümumiyyətlə, bir halda ki, seçkidə iştirak edir, debatda çıxış edir, oradakı çıxışlara münasibət ifadə eləməsi doğrudur. Orada müxalifətə qarşı etikaya uyğun olmayan hücumlara cavab vermək Sərdar bəyin üzərinə düşür.**

Orada baş nazirin müavini, YAP-ın rəhbərliyinə daxil olan şəxs oturub və onun gözünün qarşısında etikaya uyğun olmayan ifadələr siyasi qüvvələrə qarşı işlədilir. Lakin bu adam bu məsələyə bir kəlmə də olsun münasibət bildirmir. Onun bu davranışı əslində çox şeyi deyir. Sərdar Cəlaloğlu bu susqunluğa da öz münasibətini bildirmişdi".

**P.Hüseyn Sərdar Cəlaloğluna dəstək verib-verməyəcəyi barədə isə bunları dedi:** "Sərdar bəylə görüşümüz, danışıqlarımız olub. Seçkiyə münasibətdə mövqelərimiz fərqlidir. Amma mən Sərdar Cəlaloğlunun və partiyasının seçkidə iştirak etmək haqqında qərarlarına hörmətlə yanaşdığımı bəyan eləmişəm. Prinsipcə hesab edirəm ki, İTV-dəki debatların da qalibi Sərdar bəydir. Sərdar Cəlaloğlunun əslində siyasi çəkisi elədir ki, mən bu seçkilərdə iştirakına birmənalı münasibət bəsləməmişdim. Sərdar Cəlaloğlu debatlarda hökuməti çox ciddi, arqumentli tənqidlərə məruz qoydu. Müxalifətə səs vermək üçün seçki məntəqələrinə gələnlər olacaqsa bu çıxışlarına görə Sərdar Cəlaloğluna səs verəcəklər. Mən hesab edirəm ki, məsələyə ümumi yekun vurmaq üçün seçkinin sonunu gözləyək, seçkinin nəticələrinə münasibət daha konkret aydın olandan sonra Sərdar Cəlaloğlunun bu seçkilərdə iştirakına da yekun qiyməti onda verəcəyik. Müsavat Partiyasının başqanı ilə görüşməsi və ona dəstək verilməməsinə gəldikdə, bu da Müsavatın mövqeyidir və buna da normal yanaşmaq lazımdır. Çünki Müsavat Partiyası bu seçkilərə münasibətini əvvəldən ifadə edib. Bizim də mövqeyimiz Müsavat Partiyasının mövqeyi ilə üst-üstə düşür".

**"Seçkidən sonrakı prosesləri necə proqnozlaşdırırsınız" sualına isə Pənah Hüseyn belə cavab verdi:** "Hazırda cəmiyyəti daha çox iqtidarın özünün daxilindəki proseslər, iqtidarın özünün ölkənin daxilində olan problemlərə, xarici aləmdə baş verən çağırılara adekvat cavabının olub-olmayacağı maraqlandırır. O baxımdan da mən hesab eləmirəm ki, seçkilər prosesi yekunlaşdırır və 7 il üçün hər şeyə nöqtə qoyulur. İqtidar bu növbədən kənar seçkiyə getməklə, əlbəttə, özünün müəyyən problemlərini həll edib. Lakin əsas problemlər öz aktuallığını saxlayır. O baxımdan da ölkədəki proseslərin dramatikliyi heç də seçkinin bitməsi ilə azalmayacaq. Əsas maraqlı proseslər, maraqlı hadisələr qarşıdadır, seçkidən sonrakı dövrə aiddir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Xalq "biz gəlsək, filan işi görəcəyik" deyənlərə inanmır"

## AG Partiya lideri Tural Abbaslı hesab edir ki, hazırkı prezidentliyə namizədlər teledebatlarda fərqli formada çıxışlar etməlidirlər

**Prezidentliyə namizədliyini irəli sürsə də namizəd kimi təsdiqlənməyən AG Partiya sədri Tural Abbaslı "Yeni Müsavat"a açıqlamasında seçki öncəsi ölkədə mövcud siyasi proseslərə münasibət bildirib. O qeyd edib ki, əgər prezidentliyə namizədliyi təsdiqlənsəydi, teledebatlar indikindən çox fərqli formada keçərdi. Gənc siyasətçinin sözlərinə görə, proseslər sönük formada gedir: "Seçki kampaniyasının bitməsinə artıq bir həftədən də az vaxt qalıb. Artıq sonuncu teledebat keçiriləcək. Nəzərə alsaq ki, seçkiqabağı təbliğat-təşviqat işinin əsas ağırlığı teledebatlardır, o zaman bəlli qənaətlərə gəlmək olur. Doğrusu, gözlənilməz, qeyri-adi heç bir hal olmadı. Təqribən elə bu cür də gözlənilirdi. Hakimiyyət seçkini sakit, təcrübəli, heç bir fors-majora yer qoymadan aparır. Hətta namizədlərin müəyyənləşdirilməsi də bu plan üzərində idi ki, gözlənilməz, fövqəladə bir şey olmasın və hər şey qaydasında getsin. Əslində bu, bəlkə də indiki hakimiyyətə siyasi baxımdan sərf edən bir gedişdir. Ancaq Azərbaycan üçün bunu, o qədər də uğurlu hesab etmək olmaz. Çünki insanların seçkiyə, prosesə inamlarının ölməsi gələcəkdə Azərbaycanı daha qəliz vəziyyətlərə sala bilər. Onların çıxışlarından görünür ki, hamısı bəlli bir çərçivə daxilində danışırlar. Hətta hər bir namizədin özünün ağırlıq etdiyi dairə var. Yəni bu belə müəyyənləşdirilib ki, namizədlər hansı mövzu ətrafında daha çox danışa bilərlər. Seçkiyə mənim, eyni zamanda VİP sədri Əli Əliyevin buraxılmaması seçkinin tamamilə hakimiyyətin istədiyi kimi keçməsinə şərait yaratdı. Namizədliyimiz qeydə alınsaydı, biz daha müstəqil namizədlər olaraq prosesi çəkişməli, maraqlı hala gətirərdik. Bundan sonra da prosesdən hansısa qeyri-adi bir gözləntilərim yoxdur. Dolayısı ilə hakimiyyət istədiyi kimi seçki aparır. Çox güman ki, seçkinin nəticəsində 70 faiz üzərində olan səs çoxluğu ilə İlham Əliyev prezident seçiləcək. Təəssüf ki, belə oldu".**



T. Abbaslı bildirib ki, proseslərin belə vəziyyətə gəlməsində müxalifətin də günahı böyükdür: "Zamanla bunu düzəltməliyik. Əks halda, proseslər indiki kimi davam edəcək. Baxıram ki, xalq artıq "biz gəlsək, filan işi görəcəyik" söyləyənlərin səmimiyyətinə inanmır. Ancaq xalqa sən bu hakimiyyətin nə olduğunu, onların bu günə qədər qaçırdığı siyasi, iqtisadi şansları, məmurların özbaşınalıqları ilə bağlı faktları efirdən səsləndirsəydin, hansısa canlanma olacaqdı. Belə olardısa xalq da proseslərə qoşulmaq istəyərdi. Bu gün orada qarşılarındakı kağızdan öz çıxışlarını oxuyan namizədlər də ittihamlara, arqumentlərə cavab vermək məcburiyyətində qalacaqdılar. Belə olsaydı, orada Əli Əhmədov artıq əzbərlədiyi, standart cümlələri deməyəcəkdi. Məcburən irəli sürülən mövqelərə cavab verəcəkdi. Orada bugünkü rüşvətdən, özbaşınalıqdan, siyasi məhbuslardan, partiyaların salındığı ölü vəziyyətdən, Qarabağ problemindən və digər məsələlərdən də danışmaq olar. Bizim elə bir sahəmiz yoxdur ki, orada hər şey normal olsun. Bu gün hətta balanslaşdırılmış xarici siyasət deyirik, ancaq ətrafımıza baxanda görürük ki, Türkiyədən başqa heç bir dostumuz, müttəfiqimiz yoxdur. Bu gün bizim Qarabağ münaqişəsi kimi problemimiz var, geosiyasi bölgədə yerləşirik. Bu cür vəziyyəti olan ölkələrin xarici siyasəti ən yüksək səviyyədə olmalıdır. Ancaq hazırda havada qalmış kimiyik. Nə bir dəfəlik Qərbə yönəlmişik, nə Rusiyaya yaxınlaşmışıq, nə də Türkiyə ilə normal strateji-əməkdaşlıq müqaviləmiz yoxdur. Dolayısı ilə hər sahə problemlidir ki, bunlar da diskussiya, müzakirələrlə həll edilməlidir. Əli Həsənov artıq açıq mətnlə bildirdi ki, bəzi qüvvələr sərvətlərimizdən qarşılıqsız faydalanmaq istəyirlər. Bu o deməkdir ki, hansısa dövlətlər bizi şantaj edirlər. Bizdən bu yolla nələrsə tələb edirlər. Bunların olmaması üçün dövlət daxilində milli barışıq yaradılmalıdır. Xalqın, müxalifətin, hakimiyyətin üçünün birlikdə vəhdəti görünməlidir. Bu baş verməyəcəksə, Azərbaycandan istədiyini qoparmaq arzusunda olan xarici dövlətlərin əlində təsir imkanları yaranacaq. Onlar ya xalqla, ya müxalifətlə, ya da hakimiyyətlə manipulyasiya edəcəklər. Bu cür manipulyasiyalardan qaçmağın ən gözəl yolu xalqa dönük siyasət aparmaqdır. Xalqla, müxalifətlə düşmənçilik etməmək, sağlam tənqidə açıq olmaq lazımdır. Dövlətdaxili barışıq olmasa, hər bir hakimiyyət xarici müdaxilələrə açıq olacaq. Ümid etmək istəyirəm ki, hakimiyyət seçki prosesində bu nüansları gördü. Basqılardan nəticə çıxarıb, vəziyyəti düzəltməyə çalışacaqlarına ümid edirəm".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Aprel döyüşlərinin ikinci ildönüm günlərini yaşayırıq. İki il öncəki hadisələr, Azərbaycanın blits-hərbi qələbəsi bir daha ötən zaman kəsiyinin prizmasından analiz edilərək nəticə və dərs çıxarılır. Diqqət yönəldilən məsələlərdən biri də niyə Azərbaycan ordusunun o vaxt hücumu davam etdirərək daha çox ərazini işğaldan azad etməməsi ətrafındadır.**





# Qarabağ düyünü kəsiləcək, yoxsa açılacaq?

## 24 illik atəşkəs dövrünün əsas sualı açıq qalır; siyasi şərhçilərdən aprel proqnozları; Moskva ermənilərə dərs vermək üçün Qarabağda yenidən savaş başlatmaq istəyir?..

Əlbəttə ki, göz önünə ilk olaraq, Rusiya faktoru gəlir. Azərbaycan hələ ki bu faktoru ciddiyə almaq zorundadır. Bunda şübhə yox ki, 2016-cı ilin aprelindən sonra sülh danışıqlarında ciddi dönüş yaranmamasının əsas səbəbkarı yenə Moskva oldu. Çünki işğalçı ölkəyə ciddi təzyiq rıçaqları olan Moskva istəsəydi, erməni tərəfinə təsir edib onu asanca konstruktiv mövqe tutmağa vadar edə, bununla da indi böyük müharibə ehtimalı xeyli dərəcədə gündəmdən çıxmış olardı. Lakin Rusiya yekun etibarilə köhnə status-kvonun saxlanmasını üstün tutdu.

*****

Ancaq bəzi iddialara görə, Moskva o vaxt Azərbaycanın xeyrinə mövqe tutmağa çalışıb. Məsələn, ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədri Metyu Brayza mətbuata açıqlamasında Rusiya prezidenti Vladimir Putinin apreldən sonra Azərbaycanın əleyhinə olmayan konstruktiv təkliflər verdiyini, lakin Ermənistanın bunu qəbul etməkdən boyun qaçırdığını söyləyib.

**"Azərbaycan Dağlıq Qarabağ məsələsində Ermənistana ediləcək güzəştlər barədə Rusiya ilə müxtəlif polemikalar aparıb". Bu sözləri axar.az-a Metyu Brayzanın həmin açıqlamasını şərh edən keçmiş dövlət müşaviri, politoloq Qabil Hüseynli deyib. Politoloq sözügedən polemikaların zaman-zaman Azərbaycan prezidenti tərəfindən bu və ya digər formada dilə gətirildiyini bildirib.**

"Söhbət Azərbaycanın ərazi bütövlüyü pozulmamaq şərtilə Dağlıq Qarabağa ən yüksək muxtar respublika statusunun verilməsindən gedir. Yəni Dağlıq Qarabağa özünü idarəetmə, büdcəsini formaqlaşdırmaq və onu müstəqil surətdə xərcləmək, eyni zamanda daxili asayişi qoruyacaq polis qüvvələrini yaratmaq statusu verilir. Ancaq xarici siyasət və ordu bilavasitə Azərbaycanın sərəncamında qalırdı. Beləliklə, Dağlıq Qarabağa mərkəzdən asılılığı minimuma endirilmiş və demək olar ki, müstəqilliyə yaxın bir respublika statusunun verilməsi nəzərdə tutulurdu. Putin də təxminən bu təkliflərlə razılaşmışdı" - Qabil Hüseynli bildirib. Onun sözlərinə görə, razılıq əldə ediləcəyi təqdirdə Laçın dəhlizi işə salınır, Ermənistanla əlaqələr yüksək səviyyədə saxlanılır, Dağlıq Qarabağın tabeçiliyi isə Azərbaycanın ərazi bütövlüyü daxilində Bakıya verilirdi: "Putin şəxsən bütün bunları ermənilərə söyləmişdi".

**Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov öz növbəsində hesab edir ki, Rusiya üçün ən böyük təhlükə postsovet məkanının hansısa nöqtəsində müharibənin yenidən alovlanması olardı (teleqraf.com):** "Onlar bilirlər ki, Suriyada, Ukraynada olan gərginlik nöqtələrinə Dağlıq Qarabağ da əlavə olunsa, sözsüz ki, bunun nəticələrindən biri Rusiyanın regionda nüfuzunun azalması olacaq. Bunu onlar başa düşürlər. Buna görə də çalışacaqlar ki, nəsə etsinlər. Açığı, Lavrov faktoru danışıqlarda müsbət nəticəyə əngəl olur. Əgər bu faktor aradan qaldırılsa, mümkündür ki, rus siyasəti çalışacaq ki, hansısa uğurlara nail olunsun. Əlbəttə, Azərbaycanın əsas tələbi ərazilərimizin işğaldan azad edilməsidir. Mən bu ərazilərin erməni işğalı altında qalmasında Rusiyanın marağının olduğunu görmürəm. İstisna etmirəm ki, bu danışıqlarda mövzulardan biri ola bilər. Bilmirəm, danışıqlar prosesi nə zaman başlayacaq. İndi rus siyasətində bir nömrəli məsələ Qərblə olan böhranı yoluna qoymaqdır. Bəlkə də payıza yaxın biz danışıqlar prosesini müşahidə edə bilərik".

*****

**Bu arada işğalçı Ermənistanda da aprel döyüşlərinin ildönümü və müharibə mövzusu yenidən siyasi gündəmi zəbt edib. Məsələ ən müxtəlif səviyyələrdə və rakurslardan müzakirə edilməkdədir. Eyni zamanda münaqişədə Rusiyanın rolu və mümkün gedişləri təhlil edilməkdədir.**

"Moskva Qarabağda yenidən aprel savaşını başlatmaq istəyir". Bunu Ermənistanın Gömrük Xidmətinin keçmiş rəisi Yerdcanik Abqaryan deyib. "Məncə, üçtərəfli razılaşma var. Razılaşmaya əsasən, Azərbaycana yenidən imkan veriləcək ki, erməni ordusunu sınasın və Dağlıq Qarabağ əhalisini kütləvi şəkildə geri çəkilməyə məcbur etsin. Uğur qazanılacağı halda aydındır ki, Ermənistanda hakimiyyətdə olan "Qarabağ klanı" təhdid altına düşəcək. Bu təhdidin aradan qaldırılması üçün Rusiya hərbi polisinin gücündən istifadə ediləcək", - deyə o qeyd edib.

**Abqaryan digər tərəfdən, ölkədən əhalinin köçünə diqqət yönəldib:** "Erməni əhalisinin emiqrasiyası dayanmır. Onlar əsasən Rusiyaya köçürlər. Rusiya bu məsələdə keçən əsrdən maraqlıdır. Bu gün biz görürük ki, ermənilərin emiqrasiyasına paralel olaraq Ermənistana artıq rus miqrasiyası başlayıb. İrəvanın küçələrində bunun nəticələri xüsusi olaraq görünür. Ermənistandakı rus zabitlərinin və ailələrinin hesabına Rusiya həmçinin öz vətəndaşlarının ölkədəki sayını artırır. Ruslar və onların satqın, kriminal "Qarabağ klanı"nın hədəfləri bunlardır".

Yad salaq ki, ötən həftə Rusiyanın Ermənistanda hərbi polis qüvvələri yaratmağa başladığı və bu qüvvələrin Gümrüdəki 102-ci rus bazasına yerləşdiriləcəyi haqda informasiya yayılıb. Ermənistanın müxalifəti və bir sıra yerli ekspertlər bu xəbərə sərt reaksiya verib və onu Kremlin Ermənistanın müstəqilliyi və suverenliyi ilə hesablaşmadığının növbəti təzahürü, ölkənin daxili işlərinə kobud şəkildə qarışmaq cəhdi kimi qiymətləndirib.

*****

Lakin ermənilərin təlaşı əbəsdir. Daha doğrusu, məntiqsizdir. Çünki könüllü şəkildə Rusiyanın vassalı və forpostu olmağa razı olmuş bir ölkədə belə giley-güzara yer qalmır. Rusiya aydın məsələdir ki, vassal ölkə ilə öz bildiyi kimi davranacaq. Əsas da o səbəbə ki, Ermənistan adında formal dövlət müstəsna olaraq Rusiyanın, onun qayğısı hesabına, hərbi və iqtisadi, maliyyə dəstəyi, kreditləri hesabına mövcuddur. Azərbaycan torpaqlarının işğalının bunca uzanması da yenə ermənilərə Rusiya qayğısı hesabınadır.

Bu gün Ermənistanın Türkiyə və İranla xarici sərhədlərini belə ermənilərin özləri yox, rus hərbçiləri (Rusiya FTX-si) qoruyursa, artıq şərhə ehtiyac qalmır. İstənilən halda, əsas sual bu gün də öz aktuallığını saxlayır: Qarabağ düyünü kəsiləcək, yoxsa açılacaq, Rusiya regionda yeni müharibə istəyirmi?



# Azərbaycan ordusunun ən yaxşı snayperləri müəyyənləşdi

**2018-ci il üçün döyüş hazırlığı planına əsasən Azərbaycan ordusunun hərbi hissələri üzrə "Ən yaxşı snayper" adı uğrunda yarış keçirilib. Musavat.com Müdafiə Nazirliyinin saytına istinadən xəbər verir ki, sərrast atıcılıq qabiliyyətinə malik snayper-hərbi qulluqçuların müəyyən edilməsi məqsədilə təşkil olunan yarış Müdafiə Nazirliyinin xüsusi təchiz edilmiş təlim meydançasında keçirilib.**

Hərbi qulluqçuların təchizatı yoxlanıldıqdan sonra onlar əvvəlcədən hazırlanmış atəş mövqelərini tutub və normativləri icra ediblər. Snayperlər hədəflərə fərdi və qrup şəklində atışlar edib, manelərin dəf edilməsi üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər. 6 mərhələdən ibarət olan yarışda hərbi qulluqçular "Snayper müdafiədə", "Snayper hücumda" və digər tapşırıqlar üzrə çalışmalarda öz bacarıqlarını nümayiş etdiriblər.

Yekun nəticələrə görə qaliblər müəyyən edilib və mükafatlandırılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 71 (6960) 4 aprel 2018




# Ziya Məmmədov indi də əmlaklarını itirir-təfərrüat

## “Prezident seçkisindən sonra sabiq naziri həbs edə bilərlər” iddiası

**Sabiq nəqliyyat naziri Ziya Məmmədov ailə biznes-imperiyasına daxil olan aktivləri itirməkdə davam edir. 2018-ci il aprelin 1-dən belə obyektlərdən biri olan Qubadakı beşulduzlu “Quba Rixos” hoteli rebrendinq edib.**

Hoteli Ziya Məmmədovun əlindən əslində 2015-ci ildə almışdılar. O dövrdə hakimiyyətdə Ziya Məmmədova inamsızlıq yaranmışdı və nəqliyyat naziri olaraq səlahiyyətləri çox ciddi şəkildə məhdudlaşdırılmışdı. Həmin günlərdə belə xəbərlər yayılmışdı ki, Ziya Məmmədova oğlu Anar Məmmədovun idarə etdiyi “Garant Holdinq”ə daxil olan beşulduzlu “Rixos Quba Azərbaycan” hotelini təhvil vermək tapşırılıb. Hotelin sahibi dəyişdirilib və fəaliyyətini davam etdirib. Yeni sahibləri isə 2018-ci il aprelin 1-dən hotelin adını “Quba Palace”yə dəyişiblər.

**Hotelin baş meneceri Kənan Ağayevin sözlərinə görə, “Quba Palace” yüksək səviyyəli xidməti ilə sektorda uğurlu və peşəkar imicini saxlayaraq yeni brendini daha da məşhurlaşdırmağa çalışacaq. Hotel rəhbərliyi “Rixos” brendinin hotelin adından çıxarılmasının yeni çağırışlarla əlaqəli olduğunu bildirib:** ““Rixos” brendi regionu tərk etmək haqqında qərarını açıqlayaraq rəsmən həm Azərbaycan, həm də Gürcüstan bazarından çıxır. Nəticə etibarilə aprel ayından Azərbaycandakı “Quba Rixos” hoteli “Quba Palace”, Gürcüstandakı “Rixos Borjomi” isə “Borjomi Likani” adını daşıyacaq. Biz daha çox turist cəlb etmək, hotelimizin böyük potensial və imkanlarından səmərəli şəkildə istifadə etmək istəyirik. Əminik ki, yaxın bir müddətdə “Quba Palace” bazarda daha güclü bir brend kimi tanınacaq".

Qeyd edək ki, Azərbaycanda ilk və yeganə qolf meydançasına malik “Quba Palace” (keçmiş “Rixos”) hotel kompleksi 2013-cü ildə istifadəyə verilib. Maraqlıdır ki, Ziya Məmmədovun oğlu Anar Məmmədov hoteli 2015-ci ildə təhvil versə də, rəhbərlik etdiyi “Garant Holdinq”in saytında http://www.garant.az/az/Layih%C9%99l%C9%99r/2333 ttp://www.garant.az/az/Layih%C9%99l%C9%99r/2333 hələ də hotelin “Rixos Quba Azərbaycan”ın holdingə daxil olduğu haqda məlumat qalmaqdadır. Onu da qeyd edək ki, 2011-ci ildə Ziya Məmmədovun oğlu Anar Məmmədov Azərbaycan Qolf Federasiyasını qeydiyyatdan keçirib. Özü də həmin federasiyanın prezidenti seçilmişdi. 2 il sonra isə Anar Məmmədov “Rixos Quba Azərbaycan”da ölkədə yeganə qolf meydançasını da istifadəyə vermişdi. 2015-ci ildə “Rixos Quba Azərbaycan” Məmmədovların ailə holdinqlərinin tərkibindən çıxarılandan sonra Anar Məmmədov Azərbaycan Qolf Federasiyasını maliyyələşdirməkdən də imtina edib. Hazırda federasiyanın qapıları bağlıdır. Federasiya maliyyə çatışmazlığına görə uzun müddətdir ki, heç bir beynəlxalq yarışlara da qatıla bilmir. İşçilər də aylarla əmək haqqı almadıqdan sonra işə çıxmaqdan imtina ediblər.

Yada salaq ki, Ziya Məmmədovun ailə holdinqi bir vaxtlar Bakının sərnişindaşıma nəqliyyatında inhisarçı mövqedə olan “Transgate” MMC-yə sahib idi. Ziya Məmmədovun kreslosu laxlayandan sonra “Transgate”ə məxsus avtobuslar istifadəyə yararsız adı ilə Bakını əhatə edən marşrut xətlərindən çıxarıldı. MMC-yə məxsus 10-dan çox marşrut başqa daşıyıcılara təhvil verildi. Məmmədovların Bakının mərkəzində ucaltdıqları və bir vaxtlar hər kəsin Ziya Məmmədovun klanı üçün “xilas kəməri” hesab etdiyi “Trump Tower” də artıq özgəninkiləşdirilib. Ziya Məmmədov hakimiyyətdəki mövqelərini itirdiyi günlərdə onun oğlu Anar Məmmədovun özünə dost elan etdiyi Donald Tramp ABŞ-da prezidentliyə namizəd idi. Trampın prezident seçilməsindən sonra Azərbaycanda buna ən çox sevinən Məmmədovlar ailəsi idi. Ziya Məmmədovun karyerasının qürub etdiyi bir zamanda oğlu Anar Məmmədovun dostu Trampın supergüc dövlətin prezidenti seçilməsi ciddi tramplin ola bilərdi. Belə iddialar da vardı ki, Ziya Məmmədov Trampın prezident seçilməsi şərəfinə ziyafət təşkil edib. Oğlu Anar Məmmədov da ABŞ seçkilərinin nəticəsini toy-bayrama çevirmişdi. Hətta belə xəbərlər dolaşırdı ki, Ziya Məmmədov yolunun vitse-prezidentliyə açıldığını düşünür, revanşa hazırlaşırmış. Lakin çərxi-fələk tam əksini ortaya qoydu. Tikinti maqnatı olan milyarder Donald Tramp azərbaycanlı oliqarx Anar Məmmədova görə ölkəsində kəskin tənqidə məruz qaldı, iş o yerə çatdı ki, Donald Trampın adını daşıyan dəbdəbəli hotellər şəbəkəsinin Azərbaycandakı binası üzərindən “Trump Tower” sözləri söküldü. Halbuki 2014-cü ildə Tramp bəyan etmişdi ki, “Trump İnternational Hotel & Tower Baku” “Trump Organization”un standartlarını daşıyan ən yaxşı qlobal inkişaf layihələrindən biridir. Trampın adını daşıyan binaların çoxu kimi Bakıdakı hotel də ona məxsus deyil. Bina Məmmədovun nəzarət etdiyi “Garant Holdinq” tərəfindən tikilmişdi və onun şirkətinə məxsus idi. Tramp adının bu hoteldə istifadə edilməsinə və layihə ilə bağlı təcrübəsinə görə sərfəli komissiyon haqqı olaraq 2,5 milyon dollar alıb. Yayılan maliyyə sənədlərindən məlum olurdu ki, Anar Məmmədovun hotelini idarə etmək üçün “THC Baku Hotel Manager Services LLC”, “THC Baku Hotel Manager Services Member Corp.” , “THC Baku Services LLC” və “THC Baku Services Member Corp.” adlı şirkətlər təsis edilib. Həmin şirkətlərin ikisində Donald Tramp 100 faiz, ikisində isə 99 faiz paya malikdir. Hotelin Trampın dəbdəbəli hotellər zəncirinin bir hissəsi kimi idarə olunacağı haqda da xəbərlər vardı. Amma bu baş vermədi. Hoteldən “Trump Tower” sözləri söküləndən sonra Ziya Məmmədovun rəhbərlik etdiyi nazirlik də yenidən təşkil edildi. Ziya Məmmədov və komandası işsiz qaldı.

Hakimiyyətin bu gedişi sabiqə çevrilən Ziya Məmmədovun çox ciddi narazılığına səbəb olub. Oğlunu ölkədən çıxaran sabiq nazirin mövcud hakimiyyətə qarşı gizli savaşın passiv üzvünə çevrilməsi iddiaları da var. Onun baş nazirin sabiq 1-cü müavini Abbas Abbasovla əlaqəli şəkildə hazırda hakimiyyətə qarşı xaricdən hücumlar edən mühacir kəsimə dəstək verməsi xəbərləri də gəlməkdədir. Hər prezident seçkisi öncəsi təşkil edilən belə hücumların daha kəsərli olması üçün iş aparılır. Bu iddialar doğrulsa, o zaman Ziya Məmmədovun da prezident seçkilərindən sonra başının dərddə olacağı qaçılmazdır.

❑ **E.HÜSEYNOV,**
**“Yeni Müsavat”**

# Onlar hökumətin tərkibində olmayacaq-adlar

## Hansı nazirlərin vəzifəsindən alınacağı ilə bağlı iqtidar təmsilçiləri də anonslar verir, komandada ciddi dəyişiklik gözlənilir



**Azərbaycan hökuməti prezident seçkilərindən sonra yenidən formalaşdırılacaq. Aparılan müzakirələr göstərir ki, bu proses konstitusiya tələbi ilə formal xarakter daşımayacaq, komandada ciddi bir yenilənmələrlə yadda qalacaq.**

Onu da qeyd edək ki, bu barədə danışan prezidentliyə namizəd, Milli Məclisin üzvü Zahid Oruc ciddi mesajlar verib. İqtidar mətbəxinə bələd olan namizəd bildirib ki, yeni hökumətin formalaşmasına isə son bir ilin kontekstində deyil, ən azı 5 ilin yekunlarına görə qərar veriləcək: “Yeni hökumət formalaşarkən siyasi, iqtisadi təhlükəsizlik məsələlərinə diqqət veriləcək və bu tələblərə cavab verən şəxslər komandada yer alacaq”.

**YAP icraçı katibinin müavini, deputat Siyavuş Novruzov da “Yeni Müsavat”a müsahibəsində kabinetin yenidən formalaşdırılacağını deyib:** “Seçkidən sonra cənab prezident hökuməti yenidən formalaşdıracaq. Bilirsiniz ki, bütövlükdə hökumət istefaya gedir və yenidən formalaşır. Kim qənaətbəxş fəaliyyət göstəribsə, o, yenidən təsdiq olunacaq, kim göstərməyibsə, təsdiq olunmayacaq”.

Maraqlıdır ki, hökumətin yeni tərkibində olmayacaq məmurlar sırasında daha çox ölkənin maliyyə-bank sektorunu idarə edən qurumların rəhbərlərinin adları çəkilir. Mərkəzi Bank İdarə Heyətinin sədri Elman Rüstəmov, maliyyə naziri Samir Şərifov, Maliyyə Bazarlarına Nəzarət Palatası Direktorlar Şurasının sədri Rüfət Aslanlıya prezident tərəfindən yenidən etimad göstərilməyəcəyi bildirilir. Hər üç şəxsin barəsində son aylarda ölkə mətbuatında silsilə materiallar dərc olunmaqdadır. Xüsusilə ölkənin bank sektorunda yaranmış problemlərin aradan qaldırılmaması, problemli kreditlərlə bağlı məsələnin böyüyərək dövlətin üzərində ağır yükə çevrilməsi bu sahəyə nəzarət edən məsul şəxslərin fəaliyyətinin yarıtmazlığını gündəmə gətirib.

**Elə Milli Məclisin dünənki iclasında hakimiyyətə yaxın Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı çıxışında R.Aslanlını sərt tənqid edib:** “Azərbaycanda Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılıb. Bu qurum yarananda hamımız sevindik, onu dəstəklədik. Amma təəssüflər olsun ki, bu qurumun fəaliyyəti görünmür. Onun rəhbəri hara baxır, nə işlə məşğul olur? Orada intriqalar baş alıb gedir, ikihakimiyyətlilik hökm sürür. Buna son verilməlidir”.

Siyasi blokdan isə hələlik yalnız iki nəfərin adı çəkilməkdədir. Bunlardan biri xarici işlər naziri Elmar Məmmədyarovdur. Xatırladaq ki, deputat F.Ağamalı bir neçə gün öncə Milli Məclisdəki çıxışında onu açıq şəkildə istefaya çağırıb. Bildirib ki, Xarici İşlər Nazirliyi Azərbaycan prezidentinin yürütdüyü hücum diplomatiyasına adekvat işləmir. Qeyd edib ki, Azərbaycan həqiqətlərinin dünyada təbliği və haqqının tanınması üçün Azərbaycan prezidentinin müəyyən etdiyi prioritetlə nazir Elmar Məmmədyarovun fəaliyyəti uyğun deyil: “Bu olduqca ağır mənzərədir. Çox yaxşı olardı ki, Elmar Məmmədyarov heç olmasa öz təşəbbüsü ilə istefaya getsin”.

Xarici işlər nazirinin fəaliyyətindən narazılıqlar cəmiyyətin müxtəlif təbəqələrindən də səsləndirilməkdədir.

Siyasi blokdan fəaliyyəti narazılıq doğuran daha bir məmur Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovdur. Son zamanlar Avropada yaşayan mühacirlərin sərt, bir çox hallarda isə təhqiramiz çıxışlarının artması, bu fonda xaricdəki diaspora təşkilatlarının fəaliyyətinin hiss olunmaması N.İbrahimovla bağlı narazılıqları daha da artırıb. Elə xarici işlər nazirinin fəaliyyətindən narazılıqların artmasında da bu amil əsas yerlərdən birini tutur. Böyük ehtimalla, bu amil də hər iki məmurun vəzifəsi ilə vidalaşmasına gətirib çıxaracaq.

❑ **TURQUT,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 71 (6960) 4 aprel 2018

# Dollar ucuzlaşacaq, qızılın qiymәti artacaq

## 2018-ci ildə dünya birjalarını nə gözləyir?

**2017-ci il dünya iqtisadiyyatı üçün gərgin bir il kimi yadda qaldı. Xüsusən də ilin sonuna doğru beynəlxalq səviyyədə siyasi gərginliyin artması, münaqişə ocaqlarının yaranması iqtisadiyyata da təsirsiz ötüşmədi. Dünya birjaları həm enerji bazarı, həm də maliyyə bazarında gərgin anlar yaşadı.**



Bu il də böyük dövlətlər üçün siyasi baxımdan ciddi qalmaqallarla başladı. Dünya gücləri arasında soyuq müharibə havası əsməkdədir. Bəs görəsən, bütün bunlar dünyanın əsas aparıcı valyutalarına və strateji məhsul olan neftin qiymətlərinə necə təsir göstərəcək?

"Yeni Müsavat"a açıqlamasında 2018-ci il üzrə iqtisadi proqnozları dəyərləndirən **iqtisadçı ekspert Vüsalə Əhmədova** bildirdi ki, Donald Trampın xarici siyasəti və iqtisadi qərarları nəticəsində dolların dəyərdən düşməsi qaçılmaz olacaq: "Birmənalı olaraq deyə bilərik ki, 2017-ci il ABŞ dolları üçün çətin dövr oldu. Dollar Britaniya funtuna nəzərən 9%, avroya nəzərən isə 13% dəyər itirdi. Maraqlısı odur ki, bütün bunların FED (Federal Reserve System) tərəfindən uçot dərəcələrinin üç dəfə artırılmasına baxmayaraq baş verməsidir. ABŞ 2017-ci ilə böyük ümidlərlə girdi. Belə ki, Konqres tərəfindən vergi dərəcələrinin azaldılması və dövlət tənzimləmələrinin zəiflədilməsi kimi iqtisadiyyatın artımı yönündə yeni imkanlar gətirildi. Ancaq prezident Donald Trampın siyasi proqramının reallaşdırılması zamanı periodik olaraq çətinliklərlə üzləşməsi optimizmin azalmasına gətirib çıxardı və dolayısıyla dolların dəyər itirməsi heç də sürpriz olmadı".

**Neftin qiymətinə gəlincə, V. Əhmədova vurğuladı ki, qara qızılın qiymətində müsbət dinamika davam edəcək:** "ABŞ Enerji İnformasiya İdarəsi tərəfindən, ABŞ-ın kommersiya xam neft ehtiyatlarının azalması yönündə xəbərlərin yayılması investorlar tərəfindən müsbət qarşılandı. Hətta "Brent" markalı neftin barelinin qiyməti ilin əvvəlində 70 dollaradək yüksəldi. 2018-ci ildə dünyada neftə tələbatın artacağı üçün neftin qiymətinin hələ bir müddət müsbət dinamikada qalacağını söyləyə bilərik. Bildiyiniz kimi, OPEK və neft ixrac edən digər ölkələr 2016-cı ilin sonunda neft hasilatının azaldılması yönündə razılıq əldə etdilər. Razılığın şərtlərinə müvafiq olaraq neft hasilatının gündə 1,8 milyon barel azaldılacağı nəzərdə tutulmuşdu. OPEK tərəfindən neft hasilatının azaldılması, ABŞ-da havaların soyuq və şaxtalı keçməsi, ilin əvvəlində İranda yaşanan iğtişaşlar dolayısıyla neftə tələbatı artırdı. İran neft hasilatının həcminə görə OPEK-də üçüncü yeri tutur və dünya neft ehtiyatlarının 10%-i burada yerləşir. İnvestorların bu ölkədən neft tədarükündə fasilələrin yaranacağı ilə bağlı bəzi qorxuları da neftin qiymətinə müsbət təsir göstərir. Qısamüddətli perspektivdə neftin qiymətində müsbət dinamikanın üstünlük təşkil edəcəyi gözlənilir. Bundan sonra da "Brent" markalı neftin barelinin qiyməti 80 dollaradək yüksələ bilər. Neftin qiymətində cari artımlar qeydə alınsa da, orta müddətdə qiymətlərdə təkrar enmə baş verəcək. Çünki yüksək qiymətlər ABŞ şist neft istehsalçılarını hasilatı artırmağa sövq edəcək və bu da qiymətlərə təsirsiz ötüşməyəcək. Nəticədə "Brent" markalı neftin barelinin qiyməti qısamüddətli yüksəlişin ardından 60 dollaradək enəcək".

**İqtisadçının fikrincə, 2017-ci ildə baş verən iqtisadi artım bu il inflyasiyanın artması ilə nəticələnə bilər:** "Bildiyiniz kimi, 2017-ci il geosiyasi vəziyyət baxımından da əhəmiyyətli dərəcədə riskli il idi. Koreya yarımadasında (Şimali Koreya) ballistik raketlərin sınaqdan keçirilməsi, Böyük Britaniyanın AB tərkibindən çıxması məsələsi, Kataloniyanın müstəqilliyə, avroseptiklərin isə hakimiyyətə can atması və s. bu kimi hadisələrin fonunda dünya birjalarında sürətli artım qeydə alındı. 2018-ci ildə cari pul-kredit siyasətinin mənfi aspektləri özünü büruzə verəcək. Əsasən böyük qərb ölkələrinin əmək bazarlarında vəziyyət çətinləşir, inflyasiya təzyiqi artır. İnflyasiya tempinin sürətlənməsi və mərkəzi bankların öz siyasətlərini normallaşdırmaları fonunda ciddi valyuta hərəkətlərini gözləyə bilərik".

**V.Əhmədova 2018-ci ildə avronu da çətin sınaqlar gözlədiyini diqqətə çatdırdı:** "2018-ci ilin əsas hərəkətverici qüvvəsi isə AB-də siyasi vəziyyətin dəyişməsidir. Almaniya kansleri Angela Merkel siyasi böhranla qarşı-qarşıyadır, "Brexit" üzrə danışıqlar çıxılmaz nöqtəyə dirənib, Kataloniyada müstəqillik çıxışları edirlər, Vişeqrad qrupu ciddi miqrasiya siyasətinin yürüdülməsini tələb edir. Ən əsası isə İtaliyada keçiriləcək may seçkiləri olacaq ki, bu, Avropa bank sektorunda yeni bir böhran dövrünə keçidə səbəb ola bilər. Hazırda avro 20-30% dəyər qazanmış durumdadır. Ancaq qeyd etdiklərim Avropa bölgəsindən kapital axını ilə nəticələnə bilər. Kapitalın daha çox qızıl, kriptovalyutalar və ABŞ şirkətlərinin səhmləri kimi likvid aktivlərə yönləndiriləcəyi gözlənilir. Dolayısıyla qızıl, gümüş və kriptovalyutaların dəyərində artım qeydə alınacaq. Avropa Mərkəzi Bankının (ECB) rəhbərliyi isə faiz dərəcələrinin hələ uzun müddət dəyişdirilməyəcəyini, maliyyə siyasətinin 2019-cu ildən tez sərtləşdirilməyəcəyini elan edir. Britaniya Bankı 3,1% səviyyəsinədək qalxan inflyasiyanı baza səviyyəsinə endirmək üçün daha öncə uçot dərəcələrini artırma qərarı almışdı. Hazırkı vəziyyətdə, Britaniya Bankının 2018-ci ilin sonunadək uçot dərəcələrini təkrar artıracağı gözlənilmir".

**Manata gəlincə, iqtisadçı vurğuladı ki, dünya bazarında neftin qiymətinin stabil olması milli valyutamızı da saxlamağa imkan verəcək:** "Azərbaycanda neft hasilatının gündə 0,7-0,8 milyon barel olmaqla, 2040-cı ilədək stabil saxlanılacağı deyilir. Hasilat stabil saxlanılacaqsa, az əvvəl də qeyd etdiyim kimi, bölgədəki geosiyasi vəziyyət və daha çox dünya bazarındakı neftin qiyməti baxımından 2018-ci il üçün manatın məzənnəsinin cüzi dəyişiklikləri nəzərə almazsaq, stabil qalacağını söyləyə bilərik".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Azərbaycanda pravoslavlar Pasxaya hazırlaşır

## "Pasxa" sözü qədim yəhudi dilində "qurtulma" deməkdir

**Ötən bazar günü dünyadakı xristianlar Qriqori təqviminə əsasən Pasxa bayramını qeyd etdi. Adətə görə pravoslav xristianlar isə bu bayramı bir həftə sonra, yəni aprelin 8-də qeyd edəcək.**



Qeyd edək ki, həmin tarixdə ölkəmizdə də pravoslavlar Pasxa bayramını qeyd edəcək, özlərinə məxsus kilsələrdə ibadət edəcəklər.

Məlum olduğu kimi, Pasxanın qədim ənənələri var. İlk Pasxanı qədim yəhudilər İsa peyğəmbərin mövludundan 1500 il əvvəl israillilərin Musa peyğəmbərin başçılığı ilə Misiri tərk etməsi münasibətilə bayram edib. Əhdi-ətiqdə Pasxa yəhudi xalqının Misir köləliyindən qurtulduğunu göstərir. Beləliklə, "Pasxa" sözü qədim yəhudi dilində "çıxma", "qurtulma" deməkdir. Əhdi-Cədid - xristian Pasxası İsa peyğəmbərin çarmıxa çəkilməsindən və dirilməsindən sonra onun həvariləri tərəfindən müəyyən olunub və yeni məna kəsb edib. Pasxa ölüm üzərində qələbə bayramıdır.

Əhdi-Cədid Pasxası əvvəlcə xilaskarın ölümü haqqında xatirəyə həsr edilib. Bayramın vaxtı və mərasimləri xristian kilsəsi tərəfindən II əsrdə müəyyən edilib. Kilsə Pasxanın necə və nə vaxt bayram ediləcəyini yalnız V əsr üçün müəyyən edib, mərasim və qaydaları nizamlayıb və onların özünü ümumdünya məclislərində tam təsdiq edib. Xristian Pasxası İsa peyğəmbərin dirilməsi bayramıdır və yəhudilərin Pasxasından ayrı, mart gündönümünün ardınca gələn bədirlənmiş aydan sonra ilk bazar günü bayram edilir. Odur ki, Pasxa vaxtı hər il hesablanan keçici bayramdır.

Bizansdan Rusiyaya keçən xristianlıq özü ilə bərabər Pasxa bayramını da gətirib. Pasxa ən təntənəli bayrama çevrilib və böyük gün adlanıb. Bu gündən əvvəlki bütün həftə Böyük və ya Ehtiraslı həftə adlanır.

İsa peyğəmbər həvariləri ilə son şam yeməyindən sonra Gefsiman bağına gedərək, çarmıxa çəkilmənin əzablarından əvvəl təkbaşına ibadət etməyə başlayıb. Burada keşikçilər onu tutaraq məhkəməyə verib və o, çarmıxa çəkilib.

Ehtiraslı həftənin son günləri barədə deyilir: Böyük cümə axşamı - mənəvi təmizlənmə günüdür; Ehtiraslı cümə İsa peyğəmbərin əzabları, onun dəfni günüdür; Böyük şənbə kədər və İsa peyğəmbərin dirilməsini gözləmək günüdür və nəhayət, İsa peyğəmbərin dirildiyi müqəddəs gün.

Pravoslav slavyanların Böyük həftənin günlərinə həsr olunmuş çoxsaylı adətləri var. Xalq arasında "təmiz" adlanan "Böyük cümə" günündə hər bir pravoslav mənəvi cəhətdən təmizlənməyə, xüsusi ayini icra etməyə çalışır. Xalq həmin günü çayda, göldə çimərək günahlardan təmizlənir.

Elə həmin gün Pasxa süfrəsi üçün yumurta boyayıblar. Yumurta İsa peyğəmbərin mövludundan - Miladdan hələ xeyli əvvəl qədim xalqların dünyagörüşündə kainatın rəmzi olub. Plutarx yumurtanı bütün təbiətin yaradıcısı adlandıraraq, onun tərifini göylərə qaldırıb. Xristianlıqda yumurta yeni məna kəsb edib. Yumurtaları boyamaq adətini Mariya Maqdalena ilə əlaqələndirirlər. Deyilənə görə, İsa peyğəmbərin dirildiyini öyrənən Mariya Maqdalena imperator Tiberinin yanına gəlib və "İsa dirildi!" sözləri ilə ona yumurta verib. İmperator buna şübhə içində deyib: "Ağ yumurtanın dönüb qırmızı olacağına inanmaq nə qədər çətindirsə, buna da inanmaq da bir o qədər çətindir". Həmin anda ağ yumurta dönüb qırmızı olub.

Qırmızı yumurta dirilmə rəmzi, Pasxa rəmzidir. Yumurtadan yeni həyat yarandığı kimi, dünya da İsa məsihin dirilməsi vasitəsilə sanki yenidən doğulub. Qırmızı rəng dirilmənin sevinci rəngidir, bəşəriyyətin dirçəlməsinin, insanların "ilk günahdan" xilas olunmaları üçün işgəncəli ölümü qəbul etmiş İsa Məsihin çarmıxa tökülmüş qanının rəmzidir.

Qeyd edək ki, Pasxa bayramında bir çox ölkələrdə artıq uşaqlar üçün şokoladdan yumurta hazırlayır və onları paylayırlar. Məsələn, ötən həftə ABŞ-da katoliklərin keçirdiyi Pasxa zamanı uşaqlar üçün çəmənliyə 75 min şokoladlı yumurta səpələnmişdi. Həmin yumurtaları axtarıb tapmaq uşaqların ən sevimli oyunlarından birinə çevrilib. İsveçrədə isə Pasxa yumurtalarını axtarıb tapmaqdansa onların rənglənməsi daha geniş yayılıb. Xristianlar üçün yumurta zühr etmək rəmzidir. Avstraliyada isə hətta zooparklardakı heyvanlara da bayram sovqatından pay düşüb. Fransanın Arles şəhərində Pasxa günlərində korrida keçirilir.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

## Göyçayda və Gəncədə dəhşətli intihar

**Göyçay rayon sakini intihar edib. Göyçay şəhərinin Natəvan küçəsindəki rayon sakini, 1991-ci il təvəllüdlü Qumral İbrahimova xərçəng xəstəliyindən vəfat edib. Qızının ölümünə dözməyən anası 1968-ci il təvəllüdlü Sıracova İlhamə Nadir qızı sirkə turşusu içərək özünə qəsd edib. Ailə üzvləri tərəfindən Göyçay rayon Mərkəzi Xəstəxanasına çatdırılan qadının həyatını xilas etmək mümkün olmayıb. O, xəstəxanada ölüb.**

Gəncədə üzərinə benzin tökərək özünü yandıran 18 yaşlı gənc xəstəxanada ölüb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, martın 28-də xəstəxanaya yerləşdirilən 2000-ci il təvəllüdlü Suleymani Əli Fərhad oğlunun həyatını xilas etmək mümkün olmayıb.




Saniyə Məmmədova

## Şəkidə qalmaqallı mama-ginekoloq həbs edildi

**Şəki şəhər sakini, 1987-ci il təvəllüdlü Məmmədova Türkan İlham qızının martın 28-də Şəki Regional Perinatal Mərkəzində qeysəriyyə əməliyyatından sonra martın 31-də həmin mərkəzdə vəfat etməsi ilə bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (Səhlənkarlıq, vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Baş Prokurorluğun mətbuat xidmətindən lent.az-a verilən məlumata görə, iş üzrə zəruri və təxirəsalınmaz istintaq hərəkətləri aparılaraq məhkəmə-tibb və kompleks məhkəmə-tibb ekspertizaları təyin edilib.**

Cinayət işi üzrə mərkəzin direktoru vəzifəsini icra edən, eyni zamanda mərkəzin Hamiləliyin patologiyası şöbəsinin müdiri Məmmədova Saniyə şübhəli şəxs qismində tutulub.

Hazırda iş üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılmaqla qanunamüvafiq qərarın qəbul edilməsi təmin ediləcək.

Qeyd edək ki, S.Məmmədova barəsində mətbuatda çoxsaylı şikayətlər dərc edilib.

# Dönərlə bağlı iddia Bakını silkələdi: adam əti...

## Qida Təhlükəsizliyi Agentliyi bəyanat yaydı

**“Son zamanlar mətbuat orqanlarında müxtəlif növ qida məhsulları haqqında heç bir elmi mənbəyə, fakta, ciddi araşdırmaya söykənməyən, vətəndaşlar arasında birmənalı qarşılanmayan məsuliyyətsiz açıqlamaların verilməsi, yazıların paylaşılması geniş vüsət alıb”.**

“APA-Economics”ə daxil olan məlumata görə, bu, Qida Təhlükəsizliyi Agentliyinin yaydığı bəyanatda öz əksini tapıb.

Bəyanatda deyilir ki, Azərbaycan dövlətinin əhalinin ərzaq məhsulları ilə təminatı strategiyasında qida təhlükəsizliyi olduqca mühüm əhəmiyyət kəsb edir: “Qida təhlükəsizliyi insan sağlamlığı, ətraf mühitin mühafizəsi sahəsində ciddi rol oynayır və milli genefondun qorunmasında, sağlam nəslin yetişdirilməsində əsas amillərdəndir. Ona görə də dövlətimiz öz sosial-iqtisadi siyasətində qida təhlükəsizliyini daim diqqət mərkəzində saxlayır, əhalinin sağlam qida məhsulları ilə təmin edilməsi məsələsini ən önəmli tədbirlər sırasına daxil edir”.



**Bəyanatda həmçinin deyilir ki, həmin materiallarda əhalinin çox istifadə etdiyi qida məhsullarından biri olan dönərin tərkibində mənşəyi məlum olmayan ətin olduğu iddia edilir:** “Təəssüf hissi ilə bildirmək istəyirik ki, faktlara əsaslanmayan bu tipli məsuliyyətsiz iddialar əhalidə təşviş və çaşqınlıq yaradır. Özlərini istehlakçıların hüquqlarının müdafiəçisi adlandıran, sahibkarları yoxlamalar aparmaqla təhdid edən bəzi şəxslər verdikləri məsuliyyətsiz müsahibələrdə hətta dönərin insan ətindən hazırlandığı haqqında cinayət xarakterli açıqlamalar verməkdən belə çəkinmirlər. Qida Təhlükəsizliyi Agentliyi hüquq-mühafizə orqanları ilə birgə əhali arasında çaşqınlıq və təşviş yaradan bu tip əsassız materialları yayan şəxslərin barəsində qanunda nəzərdə tutulmuş qaydada ciddi tədbirlər görüləcəyini bəyan edir”.

**Agentlik əhalinin nəzərinizə çatdırmaq istəyir ki, Qida Təhlükəsizliyi Agentliyinə mənşəyi məlum olmayan qida məhsulları, o cümlədən dönərlə bağlı rəsmi şikayət daxil olmayıb:** “Fürsətdən istifadə edərək, bir daha nəzərinizə çatdırırıq ki, tək dönərlə deyil, ümumiyyətlə, qida məhsulları ilə bağlı hər hansı bir şübhəli halla rastlaşdıqda, dərhal həmin qida məhsulunun istehsal olunduğu müəssisənin hüquqi ünvanı və ya qida məhsulunun satışının həyata keçirildiyi satış nöqtəsi barədə Qida Təhlükəsizliyi Agentliyinin (012) 377-00-77 telefon nömrəsinə zəng vuraraq, yaxud rəsmi müraciət edərək məlumat verə bilərsiniz”.




## “AppLab” proqramının iştirakçıları gənc developerin uğur hekayəsini dinləyib

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» özünün innovativ “AppLab” inkişaf və inkubasiya proqramının iştirakçıları ilə ölkənin ən uğurlu gənc developerlərindən və startap yaradıcılarından biri olan Toğrul Səmədin görüşünü təşkil edib.**

**Toğrul Səməd və onun komandası 21 ölkə üzrə “Appstore”nin “Ən yaxşı yeni oyunlar” kateqoriyasına daxil edilmiş və “Google Play”də 5 milyon dəfədən çox yüklənmiş məşhur “Fatal Fight” mobil oyununun müəllifidir. Qısa bir vaxt ərzində populyarlaşan oyun sonradan “İtech Media Solutions” şirkətinə satılıb və Çinin Android marketində (TapTap) “Top 1" mobil oyun adına layiq görülüb.**

**Toğrul Səməd həmçinin “Buglance” crowdtesting platforması və “Tado Cafe” kimi digər uğurlu startapların müəllifidir.**

**“AppLab” mərkəzindəki görüş zamanı Toğrul öz uğur hekayəsini danışıb və gənclərə uğurlu startapın və biznesin başlanılması və idarə edilməsinə dair mühüm tövsiyələr verib.**

**Xatırladaq ki, “AppLab” layihəsinin iştirakçıları şirkətin “AppLab” Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim imkanları ilə yanaşı üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər. “AppLab” proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün «Bakcell»dən dəstək alırlar. “AppLab” Mərkəzinin dəstəyi ilə Azərbaycanın gənc mütəxəssisləri tərəfindən yaradılmış layihələrin bəziləri artıq Android və iOS əməliyyat sistemi ilə işləyən cihazlara yüklənə bilər.**

**İnnovasiya sahəsində lider olan «Bakcell» gənc nəslin nümayəndələrinə inkişaf imkanları, məsləhətlər və hətta innovativ ideyaların həyata keçirilməsi üçün tələb olunan dəstəyi göstərməyə hazırdır.**

# Qəbir yeri qiymətlərində müsəlman-xristian ayrı-seçkiliyi

## Niyə qəbir yeri müsəlmanlar üçün 63, qeyri-müsəlmanlar üçün 79 manatdır?

**Bakı Şəhər Əhaliyə Vətəndaşlıq Xidməti Tresti dəfn xərclərinə aydınlıq gətirərək, qəbir yerləri üçün müəyyən olunmuş dövlət rüsumlarını açıqlayıb. “Bakıda qəbiristanlıqlarda qəbir yerləri üçün təyin olunmuş dövlət rüsumu var. Dövlət rüsumu müsəlman qəbirləri üçün 63 manat, qeyri-müsəlman qəbirləri üçün isə 79 manat təşkil edir”. Bunu “Report”a açıqlamasında Bakı Şəhər Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin baş mühəndisi Sabir Həsənov deyib.**



O bildirib ki, rüsuma tikinti materialının qiyməti daxil deyil: “Tikinti materialını ya biz alıb veririk və pulunu alırıq, ya da bunu mərhumun yaxınları edir. Tikinti materialının tərkibinə 58 ədəd mişar daşı, 3 kisə sement, 6 ədəd Əlhəd daşı, qum və fəhlə pulu daxildir. Ümumi məbləğ bazar qiymətinə görə təyin edilir”.

Bu məsələdə diqqət çəkən əsas məqam isə qəbir yerləri üçün tətbiq olunan rüsumda müsəlman və qeyri-müsəlmanlar arasında ayrı-seçkilik edilməsidir. Nə üçün qeyri-müsəlman şəxs dəfn yeri alarkən müsəlmanlardan 16 manat daha artıq ödəməli olur?

**“Yeni Müsavat” olaraq bu sualla Bakı Şəhər Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin baş mühəndisi Sabir Həsənovla əlaqə saxladıq. O bildirdi ki, bu rəsmi dövlət rüsumudur və bütün qəbiristanlıqlarda yazılıb vurulub:** “Ölən şəxsin kimliyi əsasında onun hansı dinə mənsub olduğu, xristian, yəhudi və ya müsəlman olduğu müəyyən olunur. Xristian və yəhudilərdə ölü tabutla birlikdə dəfn olunduğu üçün qəbir daha geniş qazılır. Bu səbəbdən də daha böyük qəbir yerini əhatə edir. Dövlət rüsumunun bir qədər artıq olması da bununla əlaqədardır”.

Qeyd edək ki, qeyri-müsəlmanlardan fərqli olaraq müsəlmanlar yalnız kəfənlə dəfn olunur və belə olan halda daha kiçik qəbir yeri qazılır. Bu səbəbdən dövlət rüsumunda da müvafiq fərq nəzərə alınıb.

**İlahiyyatçı Samir Ağayev isə “Yeni Müsavat”a açıqlamasında müsəlmanlar və qeyri-müsəlmanların dəfn qaydalarındakı fərqdən danışdı:** “Fərq o qədər də böyük deyil, həm müsəlmanlar, həm xristianlar, həm də yəhudilər qəbir qazaraq ölülərini torpağa dəfn edirlər. Lakin müsəlman qaydalarına görə, meyit üzü qibləyə dəfn olunmalıdır. Ayaq tərəfi günçıxan tərəfdə, başı isə günbatan tərəfdə. Sağ çiyni üstə qəbirə qoyulur, sinəsi, üzü qibləyə doğru olur. Xristianlarda isə bu fərqlidir. Baş tərəf günçıxan tərəfə, ayaq günbatan tərəfə. Qəbirlərin geniş qazılması isə tabutla bağlıdır. Qeyri-müsəlmanlar ölünü tabutla birgə dəfn edirlər. Tabut isə daha böyük yer tutduğu üçün qəbir geniş qazılmalıdır. Müsəlman adətində isə ölü kəfənlə dəfn olunur və o qədər geniş yerə ehtiyac olmur”.

**İlahiyyatçının sözlərinə görə, müsəlmanların dəfn qaydalarına ölüyə qüsl verilməsi və cənazə namazının qılınması kimi ayinlər də daxildir:** “Müsəlmanda ölüyə qüsl verilir. Kafur və sidr adlanan maddələr var ki, onlar suya qarışdırılır, həmin su ilə qüsl verilir. Bundan sonra hənut edilir. Yəni kafur maddəsi ilə onun 7 səcdə əzalarına - alın, əllərin içi, dizlərin gözü və ayağın baş barmaqlarına vurulur. Daha sonra kəfənlənir. Bundan başqa, dəfndən öncə cənazə namazı qılınır. Xristianlar da öz ayinlərinə uyğun icra edirlər, onlarda da ölü yuyulur, kostyum geyindirirlər, tabuta qoyurlar və daha sonra dəfn edirlər”.

❑ Nərgiz LİFTİYEVA,
“Yeni Müsavat”

### Elan

**Linda Carmen Svinford Meyerin adına olan müvəqqəti yaşamaq üçün verilmiş icazə sənədi itdiyi üçün etibarsız sayılır.**

# Akademikin üzrü qəbahətindən də betər oldu

## Dünyada jurnalistləri "gözətçi köpəyə", "çığıran qaza" bənzədirlər, Ramiz Məmmədov isə...

**Artıq bir neçə gündür ki, akademik Ramiz Məmmədovun jurnalistləri təhqir etməsi, onları "küçük" adlandırması müzakirə olunmaqdadır. Bir çox ziyalıların, media kapitanlarının, eləcə də Mətbuat Şurasının sədri Əflatun Amaşovun tənqidi fikirlərindən sonra akademik mətbuat üçün açıqlama yayıb. Ramiz Məmmədov ilk öncə öz sahəsində gördüyü işlərdən, uğurlardan söz açıb, daha sonra isə sanki mətbuatdan üzr istəyirmiş kimi, həm də dediyini bir daha təsdiq edib:**

"Son vaxtlar ayrı-ayrı sayt və mətbuat orqanlarında bir qeyri-professional jurnalistin məsuliyyətsizliyi ucbatından işgüzar nüfuzuma xələl gətirən, olmayan açıqlamamın getməsindən müəyyən qədər emosional vəziyyətdə ifadə etdiyim fikir müzakirə olunmaqdadır. Mümkündür ki, fikrim əsəbi vəziyyətdə olduğum üçün kəskin alınıb. Fikrim professional, öz işini bilən, qələminə ehtiramlı jurnalistikaya yönəlməyib. Bu bir nəfərin qeyri-obyektivliyinə yönələn ifadə olmaqla hesab edirəm ki, doğru deyil. Görünür, daha dözümlü olmalı idim. Ancaq bununla birlikdə yenə də təəssüflə təsdiq edirəm ki, bizim jurnalistlərin içərisində professional olmayan, öz işinə məsuliyyətsiz yanaşanlar da vardır. Bu səbəbdən beynəlxalq səviyyəyə çıxa bilmirlər və bir azərbaycanlı kimi bu məni narahat edir".

Beləliklə, akademikin bu aşıqlaması sosial şəbəkələrdə, mətbuatda "üzrü günahından da betər" deyimi ilə ifadə olunub.



**"Kaş akademik Ramiz Məmmədov o ifadələri işlətməyəydi. Yəni bir qədər əsəblərini cilovlayardı, jurnalist isə bunu mətbuat səhifəsinə çıxartmayaydı". Bu sözləri əməkdar jurnalist Qulu Məhərrəmli "Yeni Müsavat"a açıqlamasında bildirib. Qulu Məhərrəmli qeyd edib ki, elmi, hətta inzibati vəzifə daşıyan şəxs təmkinli və səbirli olmalıdır:** "Amma bütün vəzifə adamlarının, xüsusən də tənqidə tuş gələnlərin daxilində mətbuata qarşı bir qəzəb, kin var. Mənə elə gəlir ki, bu qəzəbi üzə çıxartmaq olmaz. İnsanlar, xüsusən də vəzifə adamları anlamalıdırlar ki, jurnalistin işi rahat adamları narahat etmək, sual verməkdir. Jurnalist yersiz, uyğun olmayan sual da verə bilər, buna alışmaq lazımdır. Jurnalistlərə irad tutmağa nə var ki, istənilən şeyə irad tutmaq olur. Deyim ki, Ramiz Məmmədovu tanıyıram, o, çox qiymətli, Azərbaycan elmində yeri olan alimdir. Yəni o, öz peşəsini yaxşı bilir, çoxlu sayda uğurları var. Ona görə də onun bu cür yanlışlığa yol verməsi arzuolunmazdır".

**Qulu Məhərrəmli akademin üzr istəməsinə də münasibət bildirib:** "Burada məsələlər bir-birinə çox dolaşıb. İnsanın qürurunu sındırmaq, sonra üzr istəmək... "Molla Nəsrəddin"də deyildiyi kimi, "üzr bədtər əz günah", yəni "üzrü günahından betər olur". Jurnalistlər də bunun üzərinə çox getməməlidir. Bu haqda sosial şəbəkələrdə, mətbuatda oxuyuram. Bizim əlimizdə vasitə olduğu üçün o adamlara qlobal, geniş hücuma keçməməliyik. Ramiz müəllimin dediyi ifadədə peşmançılıq duyulur. Ola bilsin ki, indi bunu birbaşa dilinə gətirmir və sairə. Mənə elə gəlir ki, bu mövzunu artıq bağlamaq lazımdır. Jurnalistlərlə cəmiyyətin üzdə olan insanları arasında bu dərinlikləri yaratmaq olmaz. Məsələn, şəxsən mən olsaydım, həmin alimi görüşə dəvət edər və yaxud jurnalistlərlə görüşünü təşkil edərdim. O şeydə ki, dialoq mümkündür, qarşılıqlı anlaşma üçün imkanlar var, onu belə dərin konfliktə çevirmək olmaz. Bu mənada jurnalistləri də, vəzifədə olanları da həssas, bir qədər müdrik olmağa çağırıram. Çünki bunlar insana heç nə vermir. Sadəcə, bütün bunlar mətbuatın gündəmini zəbt edir. Amma bunun dərinliyində, mahiyyətində heç nə dayanmır. Ona görə də vəzifəli adamlar bilməlidir ki, jurnalistin işi soruşmaqdır, jurnalistlər də bu cür situasiyaları qabartmaqdan çəkinməlidirlər. Yəni jurnalistin işi rahat deyil. O, tənqid də, təhqir də olunur, qapıdan da qovulur. Onun işi informasiyanı cəmiyyətə çatdırmaqdır. Əlbəttə ki, bu nə qədər maneəsiz, problemsiz olsa bir o qədər yaxşıdır. Ona görə də ictimai statusumuzu çox yuxarı qaldırmalı deyilik. Cəmiyyətdə hər zaman bu cür arzuolunmayan vəziyyətlər yaranır".

**Qulu Məhərrəmli akademikin dediklərində həqiqət olduğunu da vurğulayıb:** "Dediyi həqiqətdir ki, bu gün jurnalistikanın səviyyəsi çox aşağı düşüb. Düşünürəm ki, o, peşəkarları nəzərdə tutmur. Bu gün həqiqətən də qeyri-peşəkar dəstə var, onların media ilə heç bir əlaqəsi yoxdur. Nə sual verə bilir, nə də ki, məsələlərin mahiyyətindən tam məlumatlı olmurlar. Tam əminəm ki, akademik də onları nəzərdə tutub. Onun heç bir peşəkar jurnalistlə işi yoxdur".

Qeyd edək ki, son illərdə jurnalistlərin tez-tez təhqir olunmasının, onlara qarşı kobud davranılmasının şahidi oluruq. Akademikin jurnalistləri "küçük" adlandırması buna əyani sübutdur. Lakin ABŞ və Avropada jurnalistlər cəmiyyətin və demokratiyanın "gözətçi köpəyi" adlanır. Bu, hörmətə layiq status hesab olunur. Medianın təyinatı haqqında bir tərif də var - "Media cəmiyyətlə hadisələr arasında elə qoyulmuş güzgüdür ki, insanlar ora baxaraq bütün hadisələri olduğu kimi görür". Şərqdə isə jurnalistləri "4-cü hakimiyyət" adlandırılır.

**Qulu Məhərrəmli bu ifadələrdən də söz açıb:** ""Gözətçi köpəyi" dünyada məşhur olan ifadədir, jurnalistlərin birbaşa missiyasını ifadə edir. Yəni jurnalistsənsə, cəmiyyətin təhlükəli olan məsələlərə girməsinə izn verməməli, bu təhlükələrdən xəbərdar etməli, səs salmalı, cəmiyyətə mesajlar verməli, həyəcanları ifadə etməlisən. Bu mənada, bəli, jurnalistlər mətbuat "gözətçi köpəyi"dir.

Jurnalistləri "çığıran qazlar"a da bənzədirlər. Bildiyiniz kimi, qədimdə Qallar xəlvəti şəkildə Romanı işğal etmək istəyəndə, şəhərin kənarındakı qazlar səs-küy salaraq döyüşçüləri oyadıb və beləliklə, Romanı təhlükədən xilas ediblər. Bu baxımdan jurnalistləri "çığıran qazlar"a bənzədirlər, yəni insanları təhlükədən xəbərdar edir.

Bəzi ölkələrdə jurnalistləri "zəngli saat"a bənzədirlər. Yəni jurnalist zəng çalıb, hər kəsi oyatmalıdır. Napoleon isə jurnalistləri orduya bənzədirdi. Bu cür ifadələr çoxdur. Düşünürəm ki, bütün bunlar jurnalistlərin ictimai mahiyyətini, missiyasını ifadə edən bənzətmələrdir".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Ya əfv, ya amnistiya...

## Əfv Komissiyası prezident seçkiləri ilə bağlı iclaslarına fasilə verib

**Gələn ay mərhum prezident Heydər Əliyevin anadan olmasının 95 və Xalq Cümhuriyyətinin yaranmasının yüz illiyi ilə bağlı əfv, eləcə də amnistiyanın olacağı deyilir. 11 apreldə keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı iclaslarına fasilə verən Əfv Komissiyasının seçkilərdən sonra mütəmadi toplanacağı və gələn aya qədər işlərini başa çatdıracağı bildirilir.**



**Əfv Komissiyasının üzvü Əlimməmməd Nuriyev** may ayında əfv sərəncamının veriləcəyi barədə ümidli danışdı: "Əfv Komissiyası mütəmadi olaraq fəaliyyətini davam etdirir. Daxil olan müraciətlər araşdırılır, müvafiq arayışlar verilir. İndiyə qədər Əfv Komissiyası yüzlərlə müraciətə baxıb. Ümid edirəm ki, qarşıdakı aylarda, daha doğrusu, may ayında əfv sərəncamının cənab prezident tərəfindən imzalanması istisna olunmur. Əfv hüququ ölkə başçısının müstəsna səlahiyyətidir. Bunun üçün də əfvin nə zaman veriləcəyi prezidentdən asılıdır. Amma işlər gedir, ərizələrə baxılma prosesi davam edir. Daxil olan ərizələri hərtərəfli araşdırmağa ehtiyac vardır. Bu, müəyyən vaxt alan məsələdir. Əfv Komissiyası real işləyən bir təsisatdır. Orada işlər tam müvafiq şəkildə gedir. Güman edirəm ki, may ayına qədər bütün müraciətlərə baxıb, işimizi yekunlaşdıracağıq. Hər bir məsələ ətrafında müəyyən müzakirələrin getməsi zaman tələb edir. Əfv Komissiyasının yaxın günlərdə iclası olacaq. Ümumiyyətlə, komitələrin iclasları davam edir, yaxın günlərdə də davam edəcək".

Qeyd edək ki, veriləcək əfvdə siyasi məhbuslardan ən çox azadlığa çıxma şansları REAL hərəkatının sədri İlqar Məmmədovdadır. Onun azadlığa buraxılması ilə bağlı Avropa Şurasının Azərbaycan hökumətinə verdiyi son vaxt iyunun 6-da bitir. Məhz bu səbəbdən ölkə iqtidarının Avropa ilə münasibətlərini keskinləşdirməmək üçün vicdan məhbusunu azad edəcəyi vurğulanır.

**EAL-ın idarə heyətinin üzvü Azər Qasımlı deyilənlərə inanmır:** "Açığı, ümidimiz yoxdur. Çünki ilk dəfə deyil ki, belə söz-söhbətlər ortaya atılıb. Artıq 6-cı ildir ki, İlqar Məmmədov həbsdədir. Belə fikirlər əlamətdar günlər ərəfəsində daim önə atılır və deyilir ki, İlqar Məmmədov azad olunacaq. Lakin hər zaman bunların əksi olur. İndi də heç bir ümidimiz yoxdur, bunu hakimiyyətin ictimaiyyətin hissiyyatı ilə oynamaq kimi qəbul edirik. Ortada ümidverici heç nə görmürük. Məsələ indi bir qədər fərqlidir. Çünki Avropa İnsan Haqları Məhkəməsində Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri yerinə yetirib-yetirməməsi məsələsi təftiş olunur. Bununla bağlı gözləyirik ki, may ayında Avropa Məhkəməsinin qərarı olacaq. Bu da çox ciddi bir məsələdir. Verilən qərar Avropa Şurasının Azərbaycanla münasibətlərinə ciddi şəkildə təsir edəcək. Bütün bunlara görə vəziyyət indi əvvəlkilərə nisbətən çox fərqlidir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 71 (6960) 4 aprel 2018



## Canavarları böyütdü, insanları peşman etdi...

İspaniyalı Markos Rodriqes Pantoyya 12 il boyunca canavarların arasında yaşadığını iddia edib. Onun sözlərinə görə, bu cür həyat tərzindən sonra insanlar onu xəyal qırıqlığına uğradıb. Bu barədə lenta.ru saytı xəbər verib. Markos 1946-cı ildə doğulub, 3 yaşı olanda anasını itirib. Bundan sonra isə atası və analığı tərəfindən zorakılığa məruz qalıb, ardınca da onu çobana satıblar. Uşağın 7 yaşı tamam olanda isə onun hamisi, sadəcə, yoxa çıxıb.

Pantoyinin sözlərinə görə, daha sonra canavar sürüsünə yaxınlaşıb və sürü onu öz övladı kimi saxlayıb. İspan qalada yatıb, göbələk və giləmeyvə ilə qidalanıb. Pantoyyanın 19 yaşı olanda onu ispaniyalı hərbçilər fərq edib və zorla insan cəmiyyətinə geri qaytarıblar. İndi Pantoyyanın 72 yaşı var və o hesab edir ki, hələ də cəmiyyətin tam bir üzvü ola bilməyib. Kişi etiraf edib ki, canavarlarla yaşamaq daha asandır, nəinki insanlarla. Onun şikayətləri də bu istiqamətdədir ki. İşləməyə cəhd edib, amma hər zaman özünü aldadılmış və istifadə olunmuş hiss edib. Hazırda o, məktəblilərlə heyvanlara olan sevgisi və ətraf mühiti qorumaq barədə söhbətlər aparmağı tərcih edir. Kişi eyni zamanda qeyd edib ki, dağlara qayıtmağa cəhd etsə də, heyvanlar onu yad ünsür hesab etdikləri üçün qəbul etmirlər.

# Atası ilə sağollaşandan 2 saat sonra onu tanımadı



"Daily Mail" qəzetinin xəbərinə görə, 13 yaşındakı Şarlotta Parsonsun ölümcül xəstəliyi atasını tanımadığı vaxt ortaya çıxıb. Ata Den səhər qızını məktəbə qoyandan 2 saat sonra məktəbdən qızının xəstələnməsi ilə bağlı zəng gəlib. Məktəbə gələn atanı isə qızı tanımadı. Kriz keçirən və şüur bulanıqlığı yaşayan Şarlotta dərhal xəstəxanaya aparılıb. 13 yaşlı qız ancaq anasını tanıyır və keçmiş pişiklərindən danışırdı. 10 gün boyunca xəstəxanada qalan Şarlotta iflic və miningit testləri edildi. 1 ay boyunca antibiotikdən istifadə edəndən sonra isə qızda beyin iltihabı olduğu ortaya çıxdı. Ölümcül bir xəstəlik olan və olduqca nadir rast gəlinən beyin iltihabı isə yaddaş itkisinə səbəb ola bilir. İmmunitet sistemi nisbətən zəif olan uşaqlar və yaşlılar isə beyin iltihabına daha meyllidilər. İlk vaxtlar qripə bənzər simptomlarla ortaya çıxan xəstəlik gün keçdikcə iflic, əhval dəyişikliyi, xarakter və davranış dəyişiklikləri formasında özünü göstərir. 20 həftə boyunca infeksiya ilə mübarizə aparan Şarlotta bu müddətdə məktəbdən də məhrum olub.

# Ən çox ağlayan uşaqlar bu ölkələrdə yaşayır



Britaniyalı psixoloqlar müəyyən ediblər ki, Böyük Britaniya, İtaliya, Niderland və Kanadada doğulan uşaqlar dünyanın ən ağlağan uşaqlarıdır. Onlar Danimarka, Almaniya və Yaponiyadakı körpələrdən qat-qat çox ağlayır. Alimlər bu nəticəyə Almaniya, Danimarka, Yaponiya, Kanada, İtaliya, Niderland və Böyük Britaniyada doğulan 8700 körpə üzərində müşahidə apardıqdan sonra gəliblər. Araşdırmalara görə, körpələr həyatlarının ilk iki həftəsində gün boyu orta hesabla 2 saat ağlayırlar. Daha sonra ağlamanın müddəti müntəzəm olaraq artır və altıncı həftədə 2 saat 15 dəqiqəyə çatır. Bu müddətdən sonra isə körpələr daha az ağlamağa başlayırlar. 12-ci həftədə isə onların ağlaması orta hesabla bir sutkada 1 saat 10 dəqiqəni əhatə edir.

Araşdırmada orta statistik göstəricilərdən fərqli olan körpələrin də olduğu müəyyənləşib. Belə ki, bəzi körpələr gün ərzində 30 dəqiqədən artıq ağlamırlar. Bəzilərinə isə gündə ağlamaq üçün 5 saat da bəs etmir. Fərq körpənin hansı ölkədə dünyaya gəlməsi ilə əlaqədardır. Amma araşdırma nəticəsində körpənin ağlama müddəti ilə onun yaşadığı ölkə arasında nə kimi əlaqə olduğu üzə çıxmayıb. Bunun üçün xüsusi araşdırmaya ehtiyac duyulur.




QOÇ - Təxminən saat 15-ə qədər bütün mühüm işlərinizi təxirə salın. Əks təqdirdə, uğursuz cəhdlər silsiləsinə mübtəla olacaqsınız. Sonrakı müddətdə isə maraqlı hadisə və insanlarla rastlaşacaqsınız.

BUĞA - Şəxsi işlərinizdə, eləcə də qarşılıqlı münasibətlər zəminində müsbət dönüş yaratmaq üçün kifayət qədər şanslarınız var. Atacağınız hər bir addımı dönə-dönə ölçüb-biçin.

ƏKİZLƏR - Sağlıq durumunuzu nəzarətdə saxlaya bilsəniz, gün ərzində heç bir probleminiz olmayacaq. Nahardan sonra doğmalarınız və sevdiyiniz adamlarla daha mehriban davranın.

XƏRÇƏNG - İşlərinizin çoxluğu fiziki cəhətdən yorğunluğunuza səbəb ola bilər. Lakin nəticənin uğurluluğunu nəzərə alıb usanmayın. Etibar etmədiyiniz adamların məsləhətlərinə əhəmiyyət verməyin.

ŞİR - Yeni işgüzar əlaqələr qurmaq üçün Göy qübbəsi şanslarınızı artıracaq. Amma gərək təşəbbüskarlıq qarşı tərəfdən olsun. Bu gün şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür.

QIZ - Ümumi götürdükdə uğurlu təqvim hesab etmək olar. Əksəriyyətlə müqayisədə daha çox büdcə artımı sizdə gözlənilir. Bu da hazırkı problemlərin həllinə kömək edə bilər. Bu gün yeni təkliflər də mümkündür.

TƏRƏZİ - Ulduzlar boş-boşuna oturmağınızı məsləhət görmür. Ən azı ona görə ki, artıq bürcünüzün aktiv ərəfəsi başlayıb. Şəxsi büdcənizdə və sevgi münasibətlərinizdə uğurlar da gözlənilir.

ƏQRƏB - Yeni görüş və məsləhətləşmələrdə iştirakınız gözlənilir. Qarşınızı kəsən maneələr yavaş-yavaş səngiməyə başlayacaq. Yaşca sizdən böyük olan təcrübəli adamlardan yararlanın.

OXATAN - Mənfi yüklü Ay bürcünüzdə olduğu üçün gün darıxdırıcı keçəcək, lakin hisslərinizi cilovlamağı bacarmalısınız. Çünki bu gün sizi böyük işlər gözləyir. Əsas vaxtınızı məhəbbətə həsr edin.

OĞLAQ - Kifayət qədər düşərli gündür. Ulduzlar gün ərzində nəzərdə tutduğunuz planların reallaşmasına təkan verəcək. Sadəcə, şəraitə uyğun addım atmalısınız. Günahlardan uzaq olmağa çalışın.

SUTÖKƏN - Qərarlarınızda qəti və ədalətli olsanız, heç bir xoşagəlməzliyin şahidi olmayacaqsınız. Çalışın ki, bahalı əşyalar, o cümlədən daşınmaz əmlak alqı-satqısında iştirak etməyəsiniz.

BALIQLAR - Ulduzlar sizə pul vəd edir. Bu səbəbdən əsas gücünüzü deyilən istiqamətə yönəldin. Fəaliyyət və məhəbbət istiqamətində sevindirici olaylar da baş verə bilər. Sirrinizi yalnız sirdaşa verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Meymun uşağı qaçırdı, sonra da boğdu



Hindistanın Orissa ştatındakı Banki kəndində meymun yeni doğulan uşağı oğurlayaraq, quyuya atıb. Bu barədə "South China Morning Post" nəşri xəbər verir. Uşağın anası iddia edir ki, evə girən makak-rezus cinsli meymun yatan körpəni götürüb və tez bir müddət ərzində gözdən itib. Valideynlər itən uşağı tapmağa cəhd göstərsələr də, buna nail ola bilməyiblər. Növbəti gün isə kəndin digər sakini yeni doğulan körpəni quyuda tapıb. Araşdırmalar nəticəsində məlum olub ki, körpə boğulub. Qohumlar isə hesab edir ki, meymun təsadüfən onu suda boğub. Uşağın ölümünə səbəb olan heyvanı tapmaq mümkün olmayıb. Yerli polis idarəsinin təmsilçisi isə bildirib ki, meymunlar tez-tez insanlara hücum edir və ya qida axtarışında ikən evlərə girirlər. Belə hallar tez-tez baş verir. Amma bu, bir meymunun uşağı qaçırdığı ilk hadisədir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.